# İLLİK HESABAT 2016

**az.redcrescent.az**











**İnsanlığın gücünün ehtiyaclara səfərbər olunması naminə!**

# MÜNDƏRİCAT

- HUMANİTAR FƏALİYYƏTİMİZ DAVAMLIDIR
- FÖVQƏLADƏ HALLARA HAZIRLIQ VƏ CAVABVERMƏ
- SAĞLAMLIQ VƏ QAYĞI
- KÖNÜLLÜ TƏMƏNNASIZ QAN DONORLUĞUNUN İNKİŞAFI SAHƏSİNDƏ APARILAN FƏALİYYƏTLƏR
- BEYNƏLXALQ ƏLAQƏLƏR
- İNFORMASIYA VƏ İCTIMAIYYƏTLƏ ƏLAQƏLƏR
- BEYNƏLXALQ QIZIL XAÇ VƏ QIZIL AYPARA HƏRƏKATININ FUNDAMENTAL PRİNSİPLƏRİNİN VƏ BEYNƏLXALQ HUMANİTAR HÜQUQUN ƏSASLARININ YAYIMI
- TƏŞKILATİ İNKİŞAF
- GƏNCLƏR VƏ KÖNÜLLÜLƏR
- FANDREYZİNQ (FONDLARIN ARTIRILMASI VƏ GƏLİR-GƏTİRMƏ)
- HUMANİTAR YARDIM
- MİQRASİYA VƏ MİQRANTLAR DİQQƏT MƏRKƏZİNDƏ
- SİLAHLARA QARŞI MÜBARİZƏ
- AXTARIŞ XİDMƏTİ
- MALİYYƏ
- FUNDAMENTAL PRİNSİPLƏR



## ÖN SÖZ

**Əziz dostlar!**

Fəxr hissi ilə deyə bilərəm ki, Azərbaycan Qızıl Aypara Cəmiyyəti humanitar missiyalı fəaliyyətinin 96-cı ilini də şərəflə başa vurdu. Milli Cəmiyyətin ölkə sərhədlərini aşaraq yalnız respublika ərazisində deyil, eyni zamanda ölkə xaricindəki ehtiyaclı insanlara da yardım edərək beynəlxalq səviyyədə güclü humanitar təşkilat kimi fəaliyyət göstərməsi dövlətimizin və xalqımızın dəstəyi nəticəsində mümkün olmuşdur.

2016-cı il təbii fəlakətlərin və münaqişələrin səbəb olduğu humanitar böhran ilə səciyyələndi. Hər zaman olduğu kimi bu il də Milli Cəmiyyət Hərəkatın fundamental prinsipləri çərçivəsində ölkəmizin sosial qayğılarının bir hissəsini öz üzərinə götürərək, humanitar problemlərin həllinə və humanitar böhranların yaratmış olduğu çətinliklərin aradan qaldırılmasına çalışmışdır.

2016-cı ilin aprel ayında işğal olunmuş Dağlıq Qarabağ və ətraf rayonlarda vəziyyətin gərginləşməsi fəaliyyət istiqamətimizdə müvafiq dəyişikliklərin edilməsinə zərurət yaratdı. Belə ki, hadisələrdən dərhal sonra yerlərə səfərlər edilərək, hərbi münaqişə zamanı mülki vətəndaşların əmlaklarına dəymiş zərərin və yaranmış yerli ehtiyacların lazımi qiymətləndirilməsi aparılmışdır. Zərər çəkən insanlara yardımların edilməsində və onların əsas ehtiyaclarının ödənilməsində Azərbaycan Qızıl Aypara Cəmiyyəti Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycandakı Nümayəndəliyi ilə sıx əməkdaşlıq etmişdir. BQXK-nın Azərbaycandakı nümayəndəliyinin maddi və texnixi dəstəyi ilə mütəxəssislərimiz tərəfindən cəbhə xəttinə yaxın kəndlərdə yaşayan icmalara atəş zamanı təhlükəsiz davranış qaydaları, ilk yardım vərdişləri öyrədilmiş və onlar ilk yardım çantaları ilə təmin edilmişdir. BQXK-nın Azərbaycandakı nüayəndəliyinin göstərmiş olduğu yardım və dəstək həm Milli Cəmiyyət, həm də əhali tərəfindən yüksək qiymətləndirilmişdir. Burada Azərbaycan Qızıl Aypara Cəmiyyətinin daimi tərəfdaşları olan Türkiyənin və İran İslam Respublikasının Milli Qızıl Aypara Cəmiyyətlərinin vermiş olduğu dəstəyi də xüsusi olaraq qeyd etmək istərdim. Belə ki, bu milli cəmiyyətlərin yardımları sayəsində AzQAC-ın mərkəzi anbarı çadrlarla təchiz edilmişdir.

Hesabat ilində Azərbaycan Qızıl Aypara Cəmiyyəti öz potensialından tam istifadə edərək, əhalinin aztəminatlı təbəqəsinə, təbii və texnogen fəlakətlər zamanı zərərçəkmişlərə, məcburi köçkünlərə, ölkəmizə üz tutmuş miqrantlara, bir sözlə, əhalinin həssas təbəqəsinə humanitar yardımlar etmiş, təmənnasız tibbi-sosial və digər zəruri xidmətlər göstərmişdir. Humanizm naminə ehtiyaclı insanlara daim yardım etmək, onlara lazımi qayğı və diqqəti göstərmək üçün Milli Cəmiyyət fəaliyyət dairəsini daha da genişləndirməyə çalışmışdır.

Bu məqsədlə Azərbaycan QAC Beynəlxalq Hərəkat daxilində və eləcə də hökumət və qeyri-hökumət təşkilatları ilə mövcud olan tərəfdaşlıq əlaqələrini daha da möhkəmləndirmiş, yeni əməkdaşlıq perspektivləri istiqamətində müvafiq addımlar atmışdır. Məhz, belə qarşılıqlı əməkdaşlıq sayəsində fəaliyyətimizdə nəzərə çarpan irəliləyişlərə nail oluruq. Xarici ölkələrə səfərlər edilmiş, həmçinin digər ölkələrin milli cəmiyyətlərinin nümayəndələrini respubliamıza təşrif buyurmuşlar. 2016-cı ildə Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyanın Baş Katibinin Ofisinin direktoru cənab Cagan Çapagain və Beynəlxalq Federasiyanın Avropa Zona Ofisinin yeni təyin olunmuş rəhbəri Dr. Simon Missiri ilə müvafiq görüşlər keçirilmiş və gələcək humanitar fəaliyyətlərə lazımi dəstəyin göstərilməsi müzakirə olunmuşdur.

Ümumiyyətlə, Milli Cəmiyyətimizin fəaliyyət istiqaməti həmişəki kimi çoxsahəli olmuşdur. Belə ki, Azərbaycan Qızıl Aypara Cəmiyyəti hər il olduğu kimi bu il də respublikada humanitar sahənin inkişafına və Beynəlxalq Humanitar Hüququn insanlar arasında aşılanmasına xüsusi diqqət yetirmişdir. Milli Cəmiyyətin əsas dayağı və aparıcı güvvəsi olan gənclər və könüllülər də nəzərimizdən yan keçməmişdir. Könüllülük siyasətinin daha da genişlənməsi, gənclərin və könüllülərin humanitar fəaliyyətlərə cəlb olunması, eləcə də onların maarifləndirilməsi və inkişafı yönündə əhəmiyyətli addımlar atılmışdır.

2016-cı il Azərbaycan Qızıl Aypara Cəmiyyətinin fəaliyyətində uğurlu illərdən biri kimi qiymətləndirilə bilər. Bu uğurun ən böyük göstəricisi isə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Beynəlxalq Federasiyanın Riayət və

Vasitəçilik Komitəsi tərəfindən 8 əsas göstərici üzrə aparılan qiymətləndirməyə əsasən yüksək nəticə göstərən ilk 50 milli cəmiyyət sırasında öz layiqli yerini tutmasıdır. Bu nəticə Milli Cəmiyyətin düzgün inkişaf yolunda olmasının əyani göstəricisidir.
Əminəm ki, Azərbaycan Qızıl Aypara Cəmiyyəti sonrakı illərdə də öz nüfuzunu qoruyub saxlayacaq, qazandığı nailiyyətləri uğurla davam etdirəcək və insanların üzləşdiyi problemlərin həllinə öz lazımi töhfəsini verəcəkdir. Bu yolda Milli Cəmiyyət özünün 2016-2020-ci illər üçün yeni strateji inkişaf planını hazırlamışdır. Eyni zamanda öz hüquqi bazasını daha da möhkəmləndirmək üçün yeni Nizamnaməsi üzərində işləyir.
Azərbaycan Qızıl Aypara Cəmiyyəti bizim əməkdaşlar, könüllülər, tərəfdaşlar və donorların göstərmiş olduğu zəhmət və fədakarlıq sayəsində ehtiyaclı insanlara yardımlar edərək, onların ümid sığınacağı olmuşdur. Bizimlə birgə humanizm naminə fəaliyyət göstərən və bu sahədə bizə dəstək olan hər bir insana, hökumət və qeyri-hökumət strukturlarına, beynəlxalq təşkilatlara, üzvlərimizə və könüllülərimizə təşəkkür edirəm. Azərbaycan Qızıl Aypara Cəmiyyətinin fəaliyyətinə verdiyi hərtərəfli dəstəyə görə Azərbaycan Respublikasının Prezidenti, AzQAC-ın Fəxri Üzvü cənab İlham Əliyevə xüsusi olaraq təşəkkürümü bildirirəm. Milli Cəmiyyətimiz məhz cənab Prezidentin göstərdiyi qayğı və diqqət nəticəsində inkişaf edərək, dövlətin humanitar sahədə etibarlı dayağına çevrilmişdir.

**Novruz Aslanov**
**Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti,**
**Milli Məclisin deputatı**

.

# Fövqəladə Hallara Hazırlıq və Cavabvermə şöbəsi

## Məqsəd:

2016-2020-ci illər üçün Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Strateji Planına uyğun olaraq, Fövqəladə Hallara Hazırlıq və Cavabvermə məqsədilə, AzQAC-ın imkanlarını səfərbər edərək, insan həyatını xilas etmək, böhran və fəlakətlərdən sonra aparılan bərpa işlərində iştirak etməkdir.

## Fəaliyyətlər:

2016-cı il müxtəlif fəlakətlərdən (zəlzələ, yanğın, sel sularının daşması və s.) zərər çəkən insanlara humanitar və psixoloji yardımlarını göstərməkdə davam etdirilmişdir. AzQAC-ın FHHC şöbəsi tərəfindən 2016-cı ildə Xəzər, İsmayıllı, Ağsu, Göygöl rayonlarında, Naxçıvan MR-da, eyni zamanda 02-06 aprel 2016-cı il tarixində erməni silahlı birləşmələrinin atəşkəsi pozması nəticəsində Goranboy, Tərtər və Ağdam rayonlarında zərərçəkmiş sakinlərə 22,392.54 manat məbləğində humanitar yardım göstərilmişdir. AzQAC Goranboy – Naftalan və Ağdam rayon bölmələrinə AzQAC-ın Baş Qərargahı tərəfindən 9 ədəd çadır paylanılmışdır. Eyni zamanda Fövqəladə hallara hazırlıq və cavabvermə məqsədilə AzQAC-nın Naxçıvan MR Komitəsinə 30 ədəd çadır verilmişdir.
Beynəlxalq Qızıl Xaç Komitəsinin dəstəyi ilə 2016-cı ilin dekabr ayında Göygöl rayonunda Azərbaycan Qızıl Aypara Cəmiyyətinin (AzQAC) cəbhəyanı ərazilərə daxil olan rayon bölmələrinin işçi heyəti və könüllülərinə Fövqəladə Hallara Hazırlıq və Cavabvermə şöbəsi tərəfindən təlim-məşğələ keçirilmişdir.

## Təchizat üzrə

2016-cı ilin Yanvar – Dekabr aylarında Xəzər, İsmayıllı, Ağsu, Göygöl rayonlarında, Naxçıvan MR-da, eyni zamanda 02-06 aprel 2016-cı il tarixində erməni silahlı birləşmələrinin atəşkəsi pozması nəticəsində Goranboy, Tərtər və Ağdam rayonlarında zərərçəkmiş sakinlərə 7 ədəd qaz plitəsi, 24 yataq dəsti, 8 mətbəx dəsti, 14 ərzaq bağlaması, 5 ədəd lom, 9 gigiyenik dəst, 5 ədəd balta, 5 ədəd külüng, 5 ədəd mişar, 8 dəst rezin çəkmə, 17 ədəd yataq kisəsi, 4 ədəd yorğan, 4 ədəd döşək və 52 ədəd çadır humanitar yardım məqsədi ilə paylanılmışdır.
2016-ci ildə AzQAC-ın Baki şəhərində yerləşən Mərkəzi anbarına Fövqəladə hallara hazırlıq və cavabvermə məqsədilə 70 ədəd yataq dəsti, 30 ədəd gigiyenik dəst, 50 ədəd yorğan, 30 ədəd döşək yerləşdirilmişdir. Həmçinin, 2016-cı ilin iyun ayında AzQAC-nin Bakı şəhərində yerləşən Mərkəzi anbarına İran İslam Respublikasının Qızıl Aypara Cəmiyyəti tərəfindən Fövqəladə hallara hazırlıq və cavabvermə məqsədilə 300 ədəd çadır dəsti təmənnasız olaraq verilmişdir.

## Qarşılıqlı əməkdaşlıq üzrə:

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin, Fövqəladə Hallara Hazırlıq və Cavabvermə söbəsi müxtəlif fəlakətlərdən əziyyət çəkən insanlara yardım göstərilməsilə yanaşı, həm də tərəfdaşlarla fəlakət risklərinin azaldılması məqsədilə müxtəlif tədbirlərdə, seminarlarda və treyninqlərdə fəal iştirak etmişdir.Planlaşdırılmış Mülki Müdafiə Təlimat Proqramı və Şərq Tərəfdaş Ölkələrində Təbii və Texnogen Fəlakətlərin Qarşısının Alınması, Hazırlıq və Cavab Tədbirləri üzrə Şərq Proqramı çərçivəsində Danimarkanın Snekkersten şəhərində Fövqəladə Halların İdarə olunması kollecində 2016-cı il iyun ayının 26-dan iyul ayının 1-nə kimi I Operativ İdarəetmə Təlimatı (OPM 1) təşkil olunmuşdur. Bu və növbəti təlimatda vaxtı ilə Mülki Müdafiə mövzusunda keçirilmiş İlkin Təlimat kurslarını (BAT adlanılan) uğurla bitirmiş Qafqaz ilə yanaşı (Azərbaycan, Ermənistan, Gürcüstan), Belarus, Moldova və Ukrayna ökələrindən olan namizədlər də iştirak etmişlər. Təlimat zamanı təqdim olunan mövzular İlkin Təlimat kurslarının davamı olaraq daha geniş şəkildə izah olunmuş və xüsusi əhəmiyyət kəsb edən beynəlxalq əməliyyatlarda təbii fəlakətlər zamanı göstərilən fəaliyyətlərə yönəldilmişdir. İştirakçılara ölkə səviyyəsində fəlakətlərə necə cavab verilməsi və hazırlıqlı olması, məlumatın idarəedilməsi və istiqamətləndirilməsi, müxtəlif tərəfdaşlarla, Qeyri-Hökümət Təşkilatları, Qızıl Xaç və Qızıl Aypara Hərəkatının tərkib hissələri olan Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası, Beynəlxalq Qızıl Xaç Komitəsi, Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri ilə əməkdaşlığın qurulması qaydaları, onların müxtəlif şəraitdə rolları təqdimatlar və qrup oyunlarının vasitəsilə izah edilmişdir. Təlimat boyu Azərbaycandan olan nümayəndələr tərəfindən yüksək səviyyədə fəallıq və təcrübə nümayiş etdirilmişdir. Azərbaycan Qızıl Aypara Cəmiyyətini həmin tədbirdə Fövqəladə Hallara Hazırlıq və Cavabvermə şöbəsinin müdiri Fərid Seyidzadə təmsil etmişdir.
2016-cı il sentyabr ayının 1-də Azərbaycan Qızıl Aypara Cəmiyyətinin nümayəndə heyəti, Cəmiyyətin İcraçı Katibi Ceyhun Mirzəyev, İcraçı Katibin müavini Səbinə Məhbubi-İran, Fövqəladə Hallara Hazırlıq və Cavabvermə şöbəsinin müdiri Fərid Seyidzadə, Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) əməkdaşları, əməkdaşlıq üzrə məsul şəxs Rasim Əlləzov, Əməkdaşlıq üzrə köməkçi Lyudmila Şepeleva ilə birlikdə Gürcüstan Qızıl Xaç Cəmiyyətinin (GQXC) işçi və könülləri tərəfindən BQXK-nin dəstəyi ilə Təhlükəsiz Giriş mövzusunda təşkil olunan simulyasiya məşğələsində müşahidəçi qismində iştirak etmişdir. GQXC-nin işçi və könüllüləri ilə yanaşı tədbiri cəmiyyətlə birgə fəaliyyət göstərən və əməkdaşlıq edən digər Qızıl Xaç və Qızıl Aypara Hərəkatının tərəfdaşları müşahidə etmişdir.
AzQAC Təhlükəsiz Yetişmə anlayışı çərçivəsində 2016-2017-ci illər üçün Tədbirlər Planı hazırlamış, sənədə nəzarət və həyata keçirmək məqsədilə işçi qrupu yaratmışdır.
2016-cı il sentyabr ayının 25-29 tarixlərində Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətlərinin Avropa zona ofisi tərəfindən Tacikistan Respublikasının Nurek şəhərində region üzrə Fövqəladə Hallara Cavabvermə dəstələri üçün ixtisasartırma kursu təşkil olunmuşdur. Bu təlimatda Azərbaycan, Rusiya, Belarus, Ukrayna, Qazaxstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan və Tacikistan ökələrindən olan nümayəndələr iştirak etmişlər. Təlimat bir necə hissəyə bölünmüşdür. Ssenariya uyğun olaraq birinci gün ərzində iştrakçılar işçi qruplara bölünmüş və fövqəladə hallar barəsində müəyyən informasiya çatdırılmışdır. Təlimin ikinci günündə isə sahə təlimi keçirilmişdir. Qruplar Nurek şəhərinin yüksək rutbəli nümayəndələri ilə görüşmüş və gələcək iş üçün müəyyən məlumatları əldə etmişlər. Daha sonra qruplar İlk yardıma, Psixososial dəstəyə aid simulyasiyalar, çadırların qurulmasını və humanitar yardımın paylanmasını həyata keçirmişlər. Təlim çox yüksək səviyyədə keçmiş və təlimin sonunda Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətlərinin Avropa zona ofisinin FH üzrə koordinatoru cənab Ruben Romeronun başçılığı ilə koordinasiya görüşü keçirilmişdir. Görüşdə gələcək işlərin konsepsiyası müzakirə olunmuş və iştrakçılar tərəfindən olkələrdə fövqəladə hallara cavabvermə sahəsində görülmüş işlər haqqında prezentasiyalar təşkil olunmuşdur. Bu tədbirdə Azərbaycan Qızıl Aypara Cəmiyyətini Fövqəladə Hallara Hazırlıq və Cavabvermə şöbəsinin müdiri Fərid Seyidzadə təmsil etmişdir.

Avstriya İnkişaf Agentliyi və Avstriya Qızıl Xaç Cəmiyyətinin maliyyə və texniki dəstəyi ilə Azərbaycan Qızıl Aypara Cəmiyyəti 2015-ci ilin dekabr ayından etibarən "Təhlükəsiz və möhkəm icmaların qurulması" layihəsinin 2016-2018-ci illəri əhatə edən, ikinci mərhələsinə start verilmişdir. Layihənin İsmayıllı rayonunun Diyallı, Təzəkənd, Tircan, Kürdmaşı, Yuxarı Zərnava və Sumağallı kəndlərində və Qusar rayonunun Kuzun və Əniq kəndlərində keçirilməsi nəzərdə tutlmuşdur.

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin (AzQAC) Fövqəladə Hallara Hazırlıq və Cavabvermə şöbəsi tərəfindən Cəmiyyətin katibliyinin və o cümlədən, tərəfdaş təşkilatlarının iştirakı ilə (Fövqəladə Hallar Nazirliyi (FHN), Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycandakı nümayəndəliyi, Beynəlxalq Miqrasiya Təşkilatı (BMT), Xarici İşlər Nazirliyinin nəzdində yaradılmış Azərbaycanın Beynəlxalq İnkişaf Agentliyi (AİDA), icra hakimiyyətinin nümayəndələri) Təhlükəsiz və möhkəm icmaların qurulması layihəsinin I-ci mərhələsinin bitməsi ilə bağlı 25 yanvar 2016-ci ildə Bakı şəhərində yerləşən "Divan" hotelində görüş keçirilmişdir. Görüş zamanı AzQAC-nin rəhbərliyi tərəfindən layihənin birinci mərhələsi ilə bağlı fikirlər söylənilmiş, tərəfdaşlarla fikir mübadiləsi aparılmış və mövzu ilə bağlı prezentasiyalar dinlənilmişdir.



2016-cı ilin Mart ayının 15-dən 17-nə kimi Gürcüstanın Tıflis şəhərində Təhlükəsiz və Möhkəm İcmaların Qurulması layihəsinin 2-ci mərhələsinin başlanğıcı ilə bağlı regional görüş keçirilmişdir.Görüşdə üç Qafqazyani ölkələrinin, Avstriya, Danimarka və İsveçrə Milli Cəmiyyətlərinin əməkdaşları ilə yanaşı Avstriya İnkişaf Agentliyinin nümayəndələri iştirak etmişdilər.Görüşdə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidentinin müşaviri, layihənin koordinatoru Elşən Səlimzadə, İcraçı Katibin müavini Səbinə Məhbubi-İran, AzQAC Fövqəladə Hallara Hazırlıq və Cavabvermə şöbəsinin müdiri, layihənin meneceri Fərid Seyidzadə və layihə üzrə məsləhətçi Faiq Tahirli iştirak emişdir.

2015-ci ildə Birləşmiş Millətlərin Baş Assambleyası tərəfindən təsdiq və təqdir olunan Senday Çərçivəsi 10 illik Hyoqo Fəaliyyət Proqramının (2005-2015) hüquqi davamçısıdır. Qeyd olunan mövzu ilə bağlı 2016-cı il noyabr ayının 30-dan dekabr ayının 1-ə kimi Gürcüstanın Tbilisi şəhərində "Təhlükəsiz və Möhkəm İcmaların Qurulması" proqramı çərçivəsində Cənubi Qafqaz və bir sıra Avropa ölkələrinin Milli Cəmiyyətləri, dövlət və qeyri-hökumət təşkilatlarının (QHT) iştirakı ilə 2 günlük seminar keçirilmişdir. Tədbirdə Milli Cəmiyyətin Baş Qərargahından, şəhər və yerli bölmələrin və o cümlədən Fövqəladə Hallar Nazirliyi, Xarici İşlər Nazirliyinin, Azərbaycan Beynəlxalq İnkişaf Agentliyinin əməkdaşları iştirak emişdir.

2016-cı ilin dekabr ayının 28-də "Təhlükəsiz və möhkəm icmaların qurulması" layihəsi çərçivəsində Fövqəladə Hallara Hazırlıq və Cavab vermə şöbəsinin təşkilatçılığı ilə İsmayıllı rayonunun Zərnava kəndinin orta məktəbində 150 nəfər müəllim heyəti və şagird üçün maarifləndirici tədbir həyata keçirilmişdir. Məqsəd layihənin əhali arasında yayımı, yeniyetmələr və gənclərin layihəyə cəlb olunması, fövqəladə hallara hazırlıq məqsədilə müvafiq bilik və bacarıqların aşılanmasından ibarət olmuşdur. Tədbirdə FHN-nin əməkdaşdları tərəfindən nitq söylənildi, məişət şəraitində baş vermiş yanğınlar, təhlükəsizlik nöqteyi nəzərdən yanğının yayılmasının qarşısının alınması üçün ətrafın təmizlənməsi, təhlükəsizlik qaydalarına riayət olunması qeyd olundu və video çarx nümayiş etdirildi. Təbdbirin daha maraqlı keçməsi üçün təşkilatçılar və məktəblilər tərəfindən müxtəlif çıxışlar, nümayişlər, uşaqların üzlərində rəsmlərin çəkilməsi, yuxarıda qeyd olunan mövzuları rəhbər tutaraq viktorinalar keçirilmişdir. Yeni İl bayramı ilə bağlı şaxta baba və qar qızın gəlişi də təşkil edilmişdir. 40 nəfər imkansız ailədən olan 1-6 cı sinif şagirdlərinə şam ağacı, rəngli iluminasiya və şirniyyatlardan ibarət bayram sovqatları təqdim olunmuşdur. Viktorinada qalib gələn 10 nəfər iştirak edən ən fəal şagird ayrıca mükafatlandırılmışdır.

"Təhlükəsiz zə möhkəm icmaların qurulması" layihəsi çərçivəsində İsmayıllı rayonunun Diyallı, Təzəkənd, Tircan, Kürdmaşı, Yuxarı Zərnava və Sumağallı kənd icma qruplarına, eyni zamanda Qusar rayonunun Əniq və Kuzun kənd icma qruplarına 2016-cı ilin yanvar – dekabr aylarında "Fəlakət riskinin azaldması" anlayışına daxil olan komponentlərdən 24 seminar və təlim keçirilmişdir. Ümumi dinləyicilərin sayı 96 nəfər (8 kənd, hər kənd icma qrupuna 12 nəfər üzv daxildir) təşkil etmişdir.

2016-cı ildə AzQAC tərəfindən müxtəlif fəlakətlərdən zərərçəkmiş 246 nəfərdən ibarət 53 ailəyə 22,392.54 manat məbləğində humanitar yardım göstərilmişdir.

| № | Regional Mərkəz | Ailə Sayı | Neçə nəfər | Məbləğ |
|---|---|---|---|---|
| 1 | Bakı Mərkəzi Anbar | 53 | 246 | 22,392.54 |
| 2 | **Cəmi** | **53** | **246** | **22,392.54** |

# Sağlamlıq və Qayğı

**Məqsəd:**

***Səhiyyə maarifi və səhiyyə xidmətləri vasitəsilə insanların sağlam və təhlükəsiz həyat yaşaması naminə bilik və bacarıqlarını artırmaq.***

***Səhiyyə maarifi və xidmətləri vasitəsilə əhalinin (icmaların) sağlamlığına nail olmaq və xəstəliklərin qarşısının alınması üçün qabaqlayıcı tədbirlər görmək.***

**Fəaliyyətlər:**

·İl ərzində AzQAC-nın Sağlamlıq və Qayğı şöbəsi tərəfindən Bakının 10 rayonu (Yasamal, Nərimanov, Səbayıl, Suraxanı, Sabunçu, Nəsimi, Nizami, Binəqədi, Xətai, Qaradağ), Sumqayıt şəhəri, 10 cəbhə xətti (Bərdə, Ağcabədi, Gədəbəy, Füzuli, Qazax, Tovuz, Tərtər, Ağdam, Goranboy, Ağstafa) və digər 38 rayonlarda AzQAC yerli bölmələrinin sədrləri, işçi heyəti, gənc təlimatçıları və könüllülərinin fəal iştirakı ilə müxtəlif təşkilatlarda, kitabxanalarda, mərkəzlərdə, təhsil ocaqlarında-məktəblərdə, universitetlərdə əhalinin maarifləndirilməsi məqsədilə müxtəlif xəstəliklərlə, ölkədə səhiyyə üzrə aktual mövzulara dair maarifləndirmə və təbliğat tədbirləri təşkil olunmuşdur. Əhatə olunan mövzular: ***Sağlam Həyat tərzi, İnfeksion və Qeyri-İnfeksion Xəstəliklər, Şəkərli Diabet, Autizm, Narkomaniyaya yox deyək, Ana və uşaqların sağlamlığının qorunması, Xərçəngə qalib gələk, Kəskin Respirator Xəstəliklər, Hepatit və onun növləri, AİDS-lə bağlı testdən keç və təhlükəsiz yaşa.*** **Eyni zamanda** Birləşmiş Millətlər Təşkilatı (BMT) və Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən bəyan edilmiş beynəlxalq günlər qeyd edilmişdir. Hesabat dövründə icmaya əsaslanan səhiyyə maarifi sahədə 30002 nəfər yeniyetmə və gənc, sinif şagirdləri, tələbə, müəllim heyəti, məcburi köçkün və miqrant ailələrin üzvləri, gənclər və yeniyetmələr, geniş ictimaiyyət, AzQAC işçi heyəti və könüllülər qeyd edilən mövzular ətrafında təşkil olunmuş tədbirlərdə əhatə olunmuşdur.

Tədbirlər haqqında məqalələr AzQAC-ın internet səhifəsində yerləşdirilmişdir: http://az.redcrescent.az/news/post-4481.html, http://az.redcrescent.az/news/post-3108.html, http://az.redcrescent.az/news/post-3674.html.

## *Azərbaycanda könüllü təmənnasız qan donorluğunun inkişafına yardımçı olmaq.*

**Fəaliyyətlər:**

·İl ərzində AzQAC-nın Sağlamlıq və Qayğı şöbəsi tərəfindən Bakının 5 rayonu (Yasamal, Nərimanov, Səbayıl, Suraxanı,Sabunçu), Sumqayıt şəhəri, 5 cəbhə xətti (Füzuli, Qazax, Tərtər, Ağdam, Tovuz) və digər 15 rayonlarda AzQAC yerli bölmələrinin sədrləri, işçi heyəti, gənc təlimatçıları və könüllülərinin fəal iştirakı ilə müxtəlif təşkilatlarda, təhsil ocaqlarında-məktəblər, universitetlərdə əhalinin maarifləndirilməsi məqsədilə təbliğat tədbirləri, təlimlər təşkil olunmuşdur. İstifadə olunan mövzular: ***Qan xəstəlikləri və qan donorluğu, Qan və onun komponentləri və Könüllü təmənnasız gənc qan donorlar qrupu nə üçün yaradılır***. Tədbirlərdə 3918 nəfər yeniyetmə və gənc, sinif şagidləri, tələbə, müəllim heyəti, tıbb işçiləri, miqrant ailələrin üzvləri, icma üzvləri, AzQAC işçi heyəti və könüllülər faydalanmışdır.

·İl ərzində Bakı və Sumqayıt şəhərlərində təşkilatlarda, Mərkəzi Qan Banki, Tibb Universiteti nəzdində yaradılmış və regionlarda fəaliyyət göstərən Qan Bankları ilə birlikdə keçirilmiş 12 qanvermə aksiyası nəticəsində 2070 nəfər könüllü olaraq qan vermişdir.

·Qan donorluğu sahəsində yaradılmış "Könüllü təmənnasız gənc qan donorlar qrupu 25" üzvləri ilə Bakı şəhəri və digər regionlarda 5 görüş təşkil olunmuş və fəaliyyətlər (təlimatlar, seminarlar, qan aksiyaları) müzakirə edilmişdir.Tədbirlər haqqında məqalələr AzQAC-ın internet səhifəsində yerləşdirilmişdir: http://az.redcrescent.az/news/post-4981.html, http://az.redcrescent.az/news/post-4243.html.

## *Əhalinin (icmaların) ilk yardım və psixososial dəstək üzrə bilik və bacarıqlarını artırmaq*

**Fəaliyyətlər:**

·İl ərzində AzQAC-ın Sağlamlıq və Qayğı şöbəsinin İlk Yardım sektoru tərəfindən Bakının 7 rayonu (Yasamal, Nərimanov, Suraxanı, Sabunçu, Nizami, Binəqədi, Qaradağ), Sumqayıt şəhəri, 10 cəbhə xətti (Bərdə, Ağcabədi, Gədəbəy, Füzuli, Qazax, Tovuz, Tərtər, Ağdam, Goranboy, Ağstafa) və digər 38 rayonlarda AzQAC yerli bölmələrinin gənc təlimatçıları və könüllülərinin fəal iştirakı ilə müxtəlif 5982 nəfər yeniyetmə və gənc, sinif şagidləri, tələbə, müəllim heyəti, icma üzvü, AzQAC işçi heyəti və könüllülər əhatə olunmuşdur. İstifadə olunan mövzü: ***İlk Yardım haqqında anlayış, qaydalar və əsas mesajlar.***

·İl ərzində AzQAC-nın Sağlamlıq və Qayğı şöbəsinin İlk Psixoloji Yardım sektoru tərəfindən Bakının 4 rayonu (Yasamal, Səbayıl, Suraxanı Sabunçu), Sumqayıt şəhərində 604 nəfər yeniyetmə və gənc, sinif şagidləri, tələbə, müəllim heyəti, tibb işçisi, və icma üzvünün arasında məruzələr oxunmuş, təlimlər təşkil edilmişdir. İstifadə olunan mövzular: ***İlk Psixoloji Yardım nədir və necə göstərilməlidir? Stress, onun əlamətləri, simptomları, mənfi və müsbət tərəfləri, idarə olunma üsulları, Psixososial dəstəyin göstərilməsi, Stress reaksiyası və müdafiə mexanizmləri, Stress və onunla mübarizə yolları, Uşaqların psixi sağlamlıqı, Psixi sağlamlıq və onun vacibliyi, 10 oktyabr Ümumdünya Psixi Sağlamlıq Günü və psixi sağlamlığın müdafiəsi, İİV/QİCS-ə yoluxmuş insanların psixoloji durumu.***

Avqust-Dekabr ərəfələrində AzQAC-ın təşkili və Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) maliyyə və texniki dəstəyilə cəmiyyətin cəbhə xətti rayonlarında (Tərtər, Ağdam, Goranboy) AzQAC-ın icmalarla işləyən 21 könüllü arasında İlk Psixoloji Yardım və Psixoloji durumun sağlamlığı sahəsində Yardım edənə Yardım adlı təlimlər təşkil edilmişdir. Əsas məqsəd könüllülərin psixoloji durumunun yaxşılaşdırılması və onlara bərpa mexanizmlərinin öyrədilməsidir.

AzQAC Avstriya Qızıl Xaç Cəmiyyətinin dəstəyilə keçirilən "Təhlükəsiz və Möhkəm İcmaların Qurulması" layihəsi çərçivəsində 2016-ci il dekabr ayında "***Şəhər şəraitində fəlakət zamanı risklərin azaldılması"*** mövzusunda İsmayıllı və Qusar rayonlarının icma üzvləri arasında ilk yardım vərdişləri nümayiş etdirilmişdir.

May və Dekabr aylarında BQXK-nin maliyyə dəstəyi ilə və AzQAC-ın Agdam, Tərtər, Goranboy rayon bölmələrinin iştirakı ilə sadalanan rayonların təmas xətti kəndlərində 671 icma üzvünün iştirakı ilə ilk tibbi yardım təlimi keçirilmidir. İştirakçılar xüsusi kriteriyalar əsasında seçilmiş (yaş, cins və s.). Sonda onlara və o cümlədən, icra hakimiyyəti, kənd bələdiyyəsi, məktəblər və uşaq baxçalarına İlk Yardım çantaları təqdim olunmuşdur.

·Sentyabr ayında "Ümumdünya İlk Yardım Günü"nü müxtəlif tədbirlər vasitəsilə regionlarda qeyd edilmişdir.
·2016-ci il oktyabr ayının 27-dən noyabr ayının 1-nə kimi AzQAC-nın təşkilatçılığı və BQXK-nin dəstəyi ilə cəmiyyətin cəbhə xətti regionlarından dəvət olunmuş 15 gənc təlimatçı və könüllü üçün 5 günlük **«İlk Yardım»** tədris proqramı üzrə təlim keçirilmişdir. Əsas məqsəd İlk Yardım (İY) əsas mesajları öyrətmək, praktiki məşğələlər vasitəsilə bilikləri möhkəmləndirməkdir.
·İlk yardım kurslarının təşkili ilə bağlı yerli və beynəlxalq təşkilatlara müraciət olunmuşdur. Hesabat dövründə Bakı şəhərindəki "Kempinski" hotelin 15 nəfər işçisi, Birləşmiş Millətlər Təşkilatı, UNİCEF–in 51 nümayəndəsi, AGAT təşkilatı ilə təşkil edilmiş 9 nəfər xilas edici, TVİNS MMC əməkdaşları üçün pullu təlimlər keçirilmişdir.
Tədbirlər haqqında məqalələr AzQAC-ın internet səhifəsində yerləşdirilmişdir: http://az.redcrescent.az/news/post-5099.html, http://az.redcrescent.az/news/post-4988.html, http://az.redcrescent.az/news/post-4032.html.

## *Dərmanlara davamlı vərəm xəstələrinin müalicəsinə nəzarət*

**Fəaliyyətlər:**

·AzQAC-nın "Dərmanlara Davamlı Vərəmli xəstələrin müalicə olunmasına tibbi və psixo-sosial dəstək" adlı layihə çərçivəsində Bakının Yasamal, Nəsimi, Binəqədi rayonları üzrə Vərəm dispanserində qeydiyyatda olan və aktiv müalicə proqramına qoşulan 20 vərəmli xəstəyə həftədə 1 və ya iki dəfə baş çəkilmiş və müalicələrinə nəzarət olunmuşdur.
·AzQAC tərəfindən Azərbaycan Respublikasının Vərəm xəstəliyi üzrə aparılacaq müalicəvi profilaktik tədbirlərində cəmiyyətin bir sıra bölmələrinin vasitəsilə palleativ dəstəyin göstərilməsi nəzərdə tutulur. Bununla bağlı ümumi Respublika səviyyəsində həyata keçiriləcək layihə tərtib edilib və donorlara təqdim olunub. Layihənin başlanğıcı artıq 2017-ci ildə gözlənilir.








# BEYNƏLXALQ ƏLAQƏLƏR

**Məqsəd:**

Digər ölkələrin Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri, Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK), Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası (BQXQACF) və müvafiq beynəlxalq təşkilatlarla mövcud əməkdaşlığın möhkəmləndirilməsi və əməkdaşlıq perspektivlərinin gücləndirilməsi, eyni zamanda humanitar fəaliyyətlərin həyata keçirilməsində yeni tərəfdaşlıq münasibətlərinin quralaraq əməkdaşlıq sərhədlərinin genişləndirilmə

**Fəaliyyətlər:**

·İl ərzində AzQAC-nin prezidenti Dr. Novruz Aslanov BQXK-nin Azərbaycandakı Nümayəndəliyinin yeni rəhbəri xanım Elena Ajmone Sessera ilə hər iki qurum arasında mövcud olan əməkdaşlıq üzrə həyata keçirilən fəaliyyətləri müzakirə etmək məqsədilə rəsmi görüşlər keçirmişdir;

·İyun ayında AzQAC-nin təşəbbüsü və təşkilatçılığı ilə Beynəlxalq Hərəkatın tərkib hissələri olan BQXK və Beynəlxalq Federasiya ilə mövcud olan əməkdaşlığın müzakirəsini nəzərdə tutan koordinasiya görüşü keçirilmişdir;

20 iyun tarixində Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının Avropa Zona Ofisinin yeni təyin olunmuş rəhbəri Dr. Simon Missiri Azərbaycan Qızıl Aypara Cəmiyyətinə rəsmi səfər etmişdir. Səfər zamanı Dr. Simon Missiri Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti Dr. Novruz Aslanov ilə görüş keçirmiş və iki qurum arasında mövcud olan əməkdaşlıq münasibətlərini, birgə həyata keçirilmiş humanitar fəaliyyətləri və gələcəkdə nəzərdə tutulan yeni əməkdaşlıq perspektivlərini müzakirə etmişlər;



29-30 sentyabr tarixində Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri FederasiyanınBaş Katibinin Ofisinin direktoru cənab Cagan Çapagain Bakı Beynəlxalq Humanitar Forumu çərçivəsində Azərbaycana rəsmi səfər etmişdir. Səfər zamanı cənab Cagan Çapagain Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti Dr. Novruz Aslanov ilə görüş keçirmiş və iki qurum arasında və Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı daxilində mövcud əməkdaşlığın gücləndirilməsi və genişləndirilməsi, eləcə də gələcək humanitar fəaliyyətlərdə lazımi dəstəyin göstərilməsi barədə müzakirələraparmışlar;

·AzQAC-ın 2016-2020-ci il Strateji İnkişaf Planına əsaslanaraq Milli Cəmiyyətin maliyyə imkanlarını və maliyyə mənbələrinin müxtəlifliyini təmin etməklə güclü maddi-texniki baza yaratmaq məqsədilə Milli Cəmiyyətin Beynəlxalq Əlaqələr şöbəsi Çin Qızıl Xaç Cəmiyyəti ilə əməkdaşlıq əlaqələri qurmuş və bu əməkdaşlıq münasibəti nəticəsində Çin QXC tərəfindən AzQAC-a iki ədəd elektron ianə qutusu hədiyyə edilmişdir;

·2016-cı ildə Milli Cəmiyyətin Beynəlxalq Əlaqələr şöbəsi Yaponiyanın Azərbaycandakı Səfirliyinin "Ot Kökləri və İnsan Təhlükəsizliyi Qrant Proqramı" üzrə koordinatoru xanım Miki Tsudo ilə bir sıra görüş keçirmişdir. Görüşlər zamanı Azərbaycanın ən böyük humanitar təşkilatı olan AzQAC və respublikamızda özünün müxtəlif səpkili maraqlı infrastruktur layihə və fəaliyyətləri ilə fərqlənən Yaponiyanın Azərbaycandakı Səfirliyi arasında mövcud olan əməkdaşlıq münasibətləri və əməkdaşlıq çərçivəsində həyata keçirilməsi nəzərdə tutulan layihələr müzakirə olunmuşdur. Bu baxımdan Yaponiya Səfirliyinin nümayəndələrinin Bərdə rayonuna rəsmi səfəri də təşkil olunmuşdur;

2016-cı ildə Azərbaycan Qızıl Aypara Cəmiyyəti ilə Niderland Krallığının Azərbaycan Respublikasındakı Səfirliyi arasında mövcud olan əməkdaşlıq sərhədlərini genişləndimək və humanizm naminə yeni layihələr həyata keçirmək imkanlarını dəyərləndirmək məqsədilə Niderland Krallığının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri cənab Onno Kervers ilə görüş keçirilmişdir.

·2016-cı ildə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin əməkdaşlıq sərhədlərinin genişləndirilməsi və humanitar fəaliyyətlərini həyata keçirməkdə yeni tərəfdaşlar qazanması məqsədilə Litva Respublikasının Azərbaycan Respublikasındakı Səfirliyinin nümayəndələri ilə görüş keçirilmişdir. Nəticə olaraq, 2016-cı il oktyabr ayında Azərbaycan Qızıl Aypara Cəmiyyəti ilə Litva Respublikasının Azərbaycan Respublikasındakı Səfirliyi arasında humaniz naminə əməkdaşlıq haqqında razılaşma imzalanmışdır;

·2016-cı ildə tarixində Bakıda Azərbaycan Respublikasının Fövqəladə Hallar, Xarici İşlər, Ekologiya və Təbii Sərvətlər, Səhiyyə və Təhsil Nazirlikləri, Milli Məclis, Dövlət Sərhəd Xidməti, Dövlət Gömrük Komitəsi, Azərbaycan Milli Elmlər Akademiyası nəzdində olan Respublika Seysmoloji Xidmət Mərkəzi və Coğrafiya İnstitutu, Trend Xəbər Agentliyinin və o cümlədən, UNİCEF, Fransa Respublikasının Azərbaycandakı Səfirliyinin nümayəndələrinin iştirakı ilə Şərq Tərəfdaşlığı ölkələrində Təbii və Texnogen Fəlakətlərin Qarşısının alınması, Hazırlıq və Cavab tədbirləri üzrə Avropa İttifaqı tərəfindən maliyyələşdirilən Proqram (PPRD East 2) çəçivəsində Milli Məsləhət Qrupunun (NAG) iclasları keçirilmişdir. İclaslarda Azərbaycan Qızıl Aypara Cəmiyyətinin İcraçı Katibinin müavini də iştirak etmişdir.

## *Beynəlxalq tədbirlər və səfərlər*

·26 yanvar tarixində Azərbaycan Qızıl Aypara Cəmiyyətinin İcraçı Katibin müavinləri Məhbubi-İran Səbinə və İsgəndərova Xalidə və Dövlət Sərhəd Xidməti, Dövlət Sərhəd Xidməti, Fövqəladə Hallar Nazirliyi və Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzinin məsul şəxslərindən ibarət olan nümayəndə heyəti Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası, Dünyəvi Yol Təhlükəsizliyi üzrə Tərəfdaşlıq Birliyi (GRSP), Gürcüstan QXC, Gürcüstanın Yol təhlükəsizliyi üzrə Alyansı tərəfindən Gürcüstanın Tiflis şəhərində dövlət və qeyri-dövlət strukturlarının iştirakı ilə sərhədyanı ərazilərdə baş verən qəzaların idarəedilməsinə dair təşkil olunmuş təlimdə iştirak edərək, yeni bilik və bacarıqlar əldə etmişlər.

17-20 fevral tarixlərində Milli Cəmiyyətin İcraçı Katibinin müavini Məhbubi-İran Səbinə Gürcüstanın Tiflis şəhərində TRACECA region ölkələrinin və layihədə iştirak edən dövlət və qeyri-dövlət qurumlarının nümayəndələrinin iştirakı ilə keçirilən konfransda iştirak etmiş və TRACECA regionunda yol hərəkəti təhlükəsizliyinin yüksəldilməsində yaranan problemləri müzakirə edərək çıxış yolları haqqında fikir mübadiləsi etmişdir.

13-15 aprel tarixlərində Milli Cəmiyyətin İcraçı Katibi Mirzəyev Ceyhun Türkiyənin İstanbul şəhərində təşkil olunan Dünya Humanitar Sammitinə hazırlıq görüşündə iştirak edərək AzQAC-ı təmsil etmişdir.

2-6 may tarixlərində Milli Cəmiyyətin nümayəndəsi Məhbubi-İran Səbinə Planlaşdırılmış Mülki Müdafiə Təlimat Proqramı və Şərq Tərəfdaş Ölkələrində Təbii və Texnogen Fəlakətlərin Qarşısının Alınması, Hazırlıq və Cavab Tədbirləri üzrə Şərq Proqramı çərçivəsində Danimarka-nın Snekkersten şəhərində Fövqəladə Halların İdarə olunması kollecində Cənubi Qafqaz ölkələrinin və Belarus, Moldova və Ukraynanın Milli QXQA Cəmiyyətlərinin iştirakı ilə təşkil olunmuş I Operativ İdarəetmə Təlimdə (OPM 1) iştirak edərək, milli səviyyədə görülən işlərdən məlumat vermişdir.

15-21 may tarixində Milli Cəmiyyətin Sağlamlıq və Qayğı şöbəsinin nümayəndəsi Məhbubi-İran Səbinə BQXK tərəfindən İsveçrənin Cenevrə şəhərində təşkil olunmuş İlk Yardım üzrə təlimdə iştirak edərək, mütəxəssislər tərəfindən simulasiya olunmuş müxtəlif səpkili praktiki məşğələlərdə iştirak etmiş, yeni bilik və bacarıqlar qazanmışdır.

26-30 may tarixində AzQAC-nin gənclər üzrə nümayəndəsi Ömərova Nailə Beynəlxalq Federasiya tərəfindən Monteneqronun Sutomore şəhərində Avropa Qızıl Xaç və Qızıl Aypara Milli Cəmiyyətlərinin iştirakı ilə keçirilən Avropa Gənclərinin XXII Əməkdaşlıq Görüşündə iştirak etmişdir. XXII Əməkdaşlıq Görüşü zamanı Milli Cəmiyyətlərin nümayəndələri fövqəladə hallar və miqrasiya əməliyyatlarında fəaliyyət göstərən gənc könüllülərə sosio-psixoloji dəstəyin göstərilməsi, inteqrasiya fəaliyyətinin təkmilləşdirilməsində Gənclər Davranışın Dəyişilməsinin Agentlər (YABC) konsepsiyasından istifadə edilməsi, Milli Cəmiyyətlərdə Gənclərin Cəlb olunma Strategiyasının (YES) həyata keçirilməsi və könüllülük siyasətində yeniliklərə nail olunması sahələrində gördükləri işlərdən danışaraq, öz bilik və təcrübələrini iştirakçılarla bölüşdülər.

6-10 iyun tarixində Milli Cəmiyyətin Beynəlxalq Əlaqələr şöbəsinin nümayəndəsi Ömərova Nailə Beynəlxalq Federasiyanın Avropa Zonası Ofisi tərəfindən Macarıstanın Budapeşt şəhərində Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətlərinin iştirakı ilə Milli Cəmiyyətlərin İqlim Dəyişikliyi sahəsində potensialının artırılması üzrə təşkil olunmuş təlimdə iştirak etmiş və milli, yarım-milli və icma səviyyəsində iqlim sahəsində maarifləndirici fəaliyyətlərin göstərilməsi üzrə yeni bilik və bacarıqlar əldə etmişdir.

9-12 iyun tarixində AzQAC-nin Sağlamlıq və Qayğı şöbəsinin nümayəndəsi Məhbubi-İran Səbinə Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyanın Avropa Zonası Ofisi tərəfindən Macarıstanın Budapeşt şəhərində 27 Balkan ölkələri, Orta Asiya, Cənubi Qafqaz Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətlərinin psixoloji dəstək üzrə nümayəndələrinə Beynəlxalq Federasiyanın psixososial sahədə aparıcı təlimatçıları tərəfindən keçirilən Psixososial dəstək/Cinsi zorakılığa dair seminarda iştirak etmiş və psixososial sahədə Milli Cəmiyyətin bilik və bacarıqlarının və bu sahədəki potensialının artırılmasına nail olmuşdur.

23 iyun tarixində AzQAC-nın Miqrasiya şöbəsinin nümayəndəsi Hacıyevə Sona Bakı şəhərində Avropa İttifaqının maliyyə dəstəyi göstərdiyi Beynəlxalq Miqrasiya Siyasətinin İnkişafı Mərkəzinin (İCMPD) təşkil etdiyi "Azərbaycanla Mobillik Naminə Tərəfdaşlığın həyata keçirilməsinə dəstək" – MOBİLAZE layihəsinə həsr edilmiş "Mobillik naminə Tərəfdaşlıq" beynəlxalq konfransda iştirak edərək Milli Cəmiyyəti təmsil etmişdir.

7-9 sentyabr tarixlərində Milli Cəmiyyətin nümayəndəsi Rüstəmzadə Nigar **Britaniya QXC, Kanada QXC, İsveçrə QXC, Beynəlxalq Qızıl Xaç Komitəsi və Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının dəstəyi ilə İngiltərənin London şəhərində 50-dən artıq Milli QXQA Cəmiyyətlərinin iştirakı ilə keçirilən "Fandreyzinq bacarıqlarının artırlması üzrə beynəlxalq təlim"-də Azərbaycan Qızıl Aypara Cəmiyyətini təmsil etmişdir.**

25-29 sentyabr tarixlərində Azərbaycan Qızıl Aypara Cəmiyyətinin nümayəndəsi Seyidzadə Fərid Tacıkistan Respublikasının Nurek şəhərində Beynəlxalq Qızıl Xaç və Qızıl Ayapara Cəmiyyətlərinin Avropa Zona Ofisi tərəfindən Azərbaycan, Belarus, Ukrayna, Qazaxstan, Özbəkistan, Türkmənistan, Qızğızstan və Tacıkistan ökələrinin Milli Cəmiyyətlərinin iştirakı ilə keçirilən fövqəladə hallara cavabvermə təlimində iştirak etmişdir.

**26-27 sentyabr** Azərbaycan QAC-nın Psixososial dəstək üzrə mütəxəssisi Atayev İsmayıl **Rusiyanın Moskva şəhərində BQXK və Danimarka QXC-nin dəstəyi ilə Rusiya QXC tərəfindən təşkil olunmuş "İlkin psixoloji dəstək" mövzusu üzrə beynəlxalq təlimdə iştirak etmişdir.** MDB ölkələrinin Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətlərinin nümayəndələrinin iştirak etdiyi təlimdə mütəxəssislər stress və psixolji adaptasiya, ilkin psixoliji dəstək və icmalarda psixososial dəstəyin təşkil olunması sahələri üzrə öz bilik və bacarıqlarını bölüşmüşdülər.

12-15 oktyabr tarixlərində Milli Cəmiyyətin nümayəndəsi Məhbubi-İran Səbinə İtaliyanın Bolonya şəhərində Avropa regionuna daxil olan Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətlərinin iştirakı ilə təşkil olunan İlk Yardım üzrə Təhsilin Avropa Şəbəkəsinin (FAEEN) növbəti görüşündə iştirak edərək, AzQAC-nin ilk yardım sahəsində gördüyü fəaliyyətlərindən məlumat vermişdir.

18-20 noyabr tarixində Milli Cəmiyyətin Psixososial dəstək üzrə mütəxəssisi Atayev İsmayıl Portuqaliyanın Lisbon şəhərində Beynəlxalq Federasiya və Portuqaliya QXC tərəfindən təşkil olunan Avropa QXQA Cəmiyyətlərinin Psixososial dəstək üzrə şəbəkəsinin İllik Forumunda iştirak edərək AzQAC-nı təmsil etmişdir.

7-9 dekabr tarixində Milli Cəmiyyətin nümayəndələri Ömərova Nailə və Rüstəmzadə Nigar Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) və İran Qızıl Aypara Cəmiyyəti ilə İslam və Beynəlxalq Humanitar Hüququn Müasir Tədqiqatları İnstitutunun birgə əməkdaşlığı sayəsində İran İslam Respublikasının Qum şəhərində təşkil olunan İslam və Beynəlxalq Humanitar Hüquqa (BHH) dair 2-ci Beynəlxalq Konfransda iştirak etmişlər. Beynəlxalq Konfransda dünya dinlərindəki ümumi humanitar dəyərlər, İslam nöqteyi nəzərindən mülki insanların, ölmüş, itkin düşmüş şəxslərin, məcburi köçkünlər və qaçqınların müdafiəsi, və İslam nöqteyi nəzərindən ətraf mühitin və təbii resursların qorunması müzakirə olunmuşdur.



12-13 dekabr tarixində Milli Cəmiyyətin nümayəndələri Ömərova Nailə və Rüstəmzadə Nigar Beynəlxalq Qızıl Xac və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının (BQXQACF) Avropa üzrə Regional Ofisi tərəfindən Macarıstanın Budapeşt şəhərində 20 Milli Qızıl Xaç/Qızıl Aypara Cəmiyyətlərindən olan ekspertlərin, Beynəlxalq Federasiyanın texniki rəhbərləri və məruzəçilərinin iştirakı ilə təşkil olunan vəkillilik üzrə bacarıq və təcrübələrin bölüşdürülməsinə dair görüşdə iştirak etmişlər. Görüşdə Milli Cəmiyyətlərdən olan iştirakçılar milli kontekstdə miqrasiya sahəsində həyata keçirdikləri vəkillilik işləri, əldə etdikləri uğurlar və üzləşdikləri problemlər barədə, eləcə də bu problemlərin və maneələrin aradan qaldırılması vasitələri barədə fikir mübadiləsi etdilər.

# İnformasiya və İctimaiyyətlə Əlaqələr şöbəsi

## Məqsəd:

Azərbayacan Qızıl Aypara Cəmiyyətinin fəaliyyətləri haqqında məlumatları KİV və ictimaiyyət arasında daha effektiv yaymaq, digər Milli Cəmiyətlərlə əməkdaşlığın genişləndirilməsi üçün davamlı olaraq əlaqələr qurmaq.

## Fəaliyyətlər:

AzQAC fəaliyyətləri haqqında məlumatları KİV və ictimaiyyət haqqında daha effektiv yaymış, digər milli cəmiyyətlərlə əməkdaşlığın genişləndirilməsi üçün davamlı olaraq əlaqələr qurmuşdur.AzQAC Nizamnaməsində yeni düzəliş və dəyişikliklər, spesifik maddələrə əlavə təkliflərin verilməsi üçün Komissiyanın geniş tərkibdə iclasında fəal iştirak etmişdir.Şöbənin fəal işini təşkil etmək və ümumi şöbə ilə əməkdaşlıq edərək vaxtlı vaxtında Cəmiyyətin fəaliyyətini əks etdirən məlumatları yerli və xarici KİV, internet səhifələrində və facebook, twitter,youtube kimi sosial internet şəbəkələrində yayılaraq Cəmiyyətin imicinin artırılması və Qızıl Aypara Brendini tanıtmşdır.

**Beynəlxalq Qızıl Xaç Komitəsinin Bakıdakı ofisinin yeni başçısı ilə rəsmi görüş.**

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti cənab Novruz Aslanovun Beynəlxalq Qızıl Xaç Komitəsinin Bakıdakı ofisinin yeni başçısı xanım Elena Sessera və Əməkdaşlıq üzrə məsul şəxsi cənab Qreqori Le Coq ilə rəsmi görüşünü işıqlandırmışdır.
29 sentyabr 2016-cı il tarixində Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti, Milli Məclisin deputatı Novruz Aslanovla Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyanın Baş Katibliyi ofisinin direktoru Cagan Çapagain ilə görüşü işıqlandırmışdır.
16 sentyabr 2016-cı il tarixində Azərbaycan Qızıl Aypara Cəmiyyəti (AzQAC) və Niderland Krallığının Azərbaycan Respublikasındakı Səfirliyi arasında əməkdaşlıq görüşü işıqlandırmışdır.
**Azərbaycan Qızıl Aypara Cəmiyyəti (AzQAC) və Litva Respublikasının Azərbaycandakı Səfirliyi arasında əməkdaşlıq görüşünü işıqlandırmışdır.**
20 iyun 2016-cı il tarixində Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının (BQXQACF və ya Beynəlxalq Federasiya) Avropa Zona Ofisinin yeni təyin olunmuş direktoru cənab Simon Missiri və Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Beynəlxalq Hərəkat daxili Avropa və Mərkəzi Asiya üzrə Əməkdaşlıq və Koordinasiya sektorunun rəhbəri xanım Sofiya Goyet Celebic Azərbaycan Qızıl Aypara Cəmiyyətinin (AzQAC) qonağı olmuşlar. Görüşlə bağlı məlumat media səhifələrində işıqlandırılmışdır.
05 sentyabr 2016-cı il tarixində Azərbaycan Qızıl Aypara Cəmiyyəti ilə Litva Respublikasının Azərbaycandakı səfirliyinin nümayəndələri arasında əməkdaşlıq görüşü keçirilmişdir. AzQAC-ın Baş Qərargahında baş tutan görüşdə səfirliyin nümayəndələrinə Milli Cəmiyyətin strukturu, statusu, fəaliyyət istiqamətləri və fəaliyyət prinsipləri, həyata keçirdiyi layihə və proqramlar, Beynəlxalq Qızıl Xaç Komitəsi, Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası və digər Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri, hökumət və qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq, əldə edilən nailiyyətlər barəsində məlumat verilmişdir.

# Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının Fundamental Prinsiplərinin və Beynəlxalq Humanitar Hüququn əsaslarının yayımı

## Məqsəd:

Beynəlxalq Hərəkatnın yaranması, tarixi, tərkib hissələri (BQXK, Beynəlxalq Federasiya və Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri), Hərəkatın Fundamental Prinsipləri, Qızıl Xaç, Qızıl Aypara və Qızıl Kristal emblemlərindən düzgün istifadə qaydaları, Beynəlxalq Humanitar Hüququn (BHH) əsasları haqqında məlumatları ictimaiyyət arasında yaymaq.

## Qısa tarixi

BHH-nın əsasları və BQX/QAH-nın fundamental prinsiplərinin yayımı Cenevrə Konvensiyalarına imza atmış dövlətlərin öhdəliklərindən biridir. Bu işin həyata keçirilməsi üçün Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri yaxından dəstək verir. Silahlı münaqişə zamanı insan hüquqlarının qorunmasına yönəlmiş BHH qaydaları 1949-cu ildə qəbul olunmuş Cenevrə Konvensiyaları və 1977, 2005-ci illərdə onlara əlavə olunmuş protokollarda öz əksini tapır. Yayım proqramı 1997-ci ildən BQXK-nın maliyyə və texniki dəstəyi ilə həyata keçirilir.

## Fəaliyyətlər

İnformasiya və İctimaiyyətlə Əlaqələr şöbəsinin Yayım sektoru 2016-cı ildə da AzQAC-da yeni qeydiyyatdan keçmiş könüllülərə, tələbələrə Beynəlxalq Qızıl Xaç və Aypara Hərəkatı, BHH və Fundamental Prinsiplər, AzQAC-ın tarixi haqqında geniş yayım seminarı təşkil etmiş və iştirakçıları bu barədə ətraflı məlumatlandırmışdır.
İl boyu AzQAC-ın keçirdiyi tədbirlər, aksiyalar, kampaniyalar barədə məlumatı Yayım sektoru Milli Cəmiyyətin rəsmi internet səhifəsi, sosial şəbəkələr, tərəfdaşlıq etdiyimiz media-xəbər portlalları və "Yeni Təfəkkür" qəzeti vasitəsilə geniş ictimaiyyətə çatdırmışdır.
Həmçinin Baş qərargahın bütün tədbirlərini işıqlandırmaq üçün KİV-ə fakslar göndərməklə jurnalistləri tədbirlərə cəlb edə bilmişlər.
Ümumilikdə, AzQAC-ın rəsmi internet səhifəsində, həm də "Yeni Təfəkkür" qəzetində 113 məqalə yerləşdirilmiş və çap edilmişdir.
2016-cı il ərzində emblemlərdən sui-istifadə hallarının qarşısının alınması yönündə işlər aparılmışdır. İl ərzində emblemlərdən 5 sui-istifadə hallarına rast gəlinmişdir.
12 fevral 2016-cı il tarixdə Qızıl Aypara emblemindən istifadə edən "Azmedicon" şirkətinə xəbərdarlıq edilmişdir. Şirkət rəhbərliyi ilə görüşdən sonra emblem maşın üzərindən götürülmüşdür. Şirkətə AzQAC-ın fəaliyyətlərini, Hərəkatın işləmə prinsiplərini və emblemlərdən istifadə qaydalarını əks etdirən yayım materialları verilmişdir.
22 fevral 2016-cı il tarixdə "Şahdağ" turizm kompleksinə Qızıl xaç emblemindən sui-istifadəyə görə rəsmi məktub yazılmışdır. Nəticədə, emblem dərhal yerindən çıxarılmışdır.

2016-cı ilin fevral ayında "Qızıl Xaç və Qızıl Aypara emblemlərindən istifadə və onların müdafiəsi" haqqında Azərbaycan Respublikasının Qanununa və Cenevrə Konvensiyalarına zidd olaraq, " Azərbaycan Dəmir Yolları" QSC-yə məxsus Vağzal Tibb məntəqəsi girişində asılmış yazı tablosunda ağ fonda Qırmızı Xaç və Qırmızı Aypara təsvirlərindən istifadə edilməsi Yayım sektoru tərəfindən təsbit edilmişdir. Tibb məntəqəsinə emblemərdən istifadə qaydaları və Azərbaycan Respublikasının Qanunu təqdim edilmişdir. Məntəqə rəhbərliyi bunları nəzərə alaraq emblemlərdən istifadəni dayandırmışdır

24 ferval 2016-cı il tarixdə "Elmed" klinikasına təcili yardım avtomobilin üzərində qızıl xaç emblemindən istifadə etdiyinə görə telefon əlaqəsi saxlanılaraq şifahi xəbərdarlıq edilmişdir. Xəbərdarlığa məsuliyyətlə yanaşan klinika rəhbərliyi dərhal emblemdən istifadəni dayandırmışdır.

27 may 2016-cı il tarixdə "Leyla Şıxlinskaya" adına klinikaya qızıl aypara emblemindən düzgün istifadə etmədiyinə görə müraciət edilmişdir. Məktuba tez bir zamanda cavab verilmiş və emblem təcili yardım maşınının üzərindən götürülmüşdür.







AzQAC-a istehsalat təcrübəsinə gələn Azərbaycan Turizm Universitetinin tələbələrinə Beynəlxalq Qızıl Xaç və Aypara Hərəkatı, BHH və Fundamental Prinsiplər, AzQAC-ın tarixi haqqında geniş yayım seminarı təşkil edilmişdir. Bundan başqa, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində tələbələrə Yayım seminarı keçirilmişdir.

Beynəlxalq Qızıl Xaç Komitəsi , Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası , Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri humanistliyin zirvəsi olan bu Hərəkat haqqında təbliğat yönümlü tədbirləri həyata keçirilmişdir.

14-16 noyabr 2016-cı il tarixlərdə Beynəlxalq Qızıl Xaç Komitəsinin dəstəyilə AzQAC-ın sərhədyanı rayon bölmələrinin 16 nəfər təlimatçısına Yayım seminarı keçirilmişdir. Seminarda Beynəlxalq Qızıl Xaç və Aypara Hərəkatı, BHH və Fundamental Prinsiplər, AzQAC-ın tarixi və fəaliyyətləri barədə seminar iştirkaçılarına məlumat verilmişdir. Seminarda Yayım sektorundan başqa AzQAC-ın digər şöbələri də öz fəaliyyətləri barədə iştirakçıları məlumatlandırmışlar. Seminarın sonunda iştirakçılara yayım materialları paylanılmışdır.

28 noyabr 2016-cı il tarixdə BQXK-nın Azərbaycan Nümayəndəliyinin İctimaiyyətlə Əlaqələr şöbəsinin müdiri İlahə Hüseynova ilə işgüzar görüş keçirilmişdir. Görüşdə AzQAC-ın əməkdaşlıq etdiyi xəbər portallarına Yayım seminarı təşkil etmək müzakirə olunmuşdur. Qarşılıqlı təkliflər dəyərləndirilmişdir. Növbəti il üçün seminar planlaşdırılmışdır.

**Televiziyalarda yayımlanan tədbirlər:**

1. İctimai televiziyada 15 tədbir;
2. Xəzər televiziyasında 10 tədbir;
3. Azərbaycan Dövlət televiziyasında 6 tədbir;
4. Azad Azərbaycan televiziyasında 5 tədbir;
5. Nəzər media xəbər portalında 103 məqalə;
6. Modern.az saytında 12 məqalə;
7. Edu-map xəbər portalında 70 məqalə.

**Qəzetlərdə çap edilmiş məqalələr:**

1. "Yeni təfəkkür" qəzetində 113 məqalə
2. "Vışka" qəzetində 45 məqalə



# Regional Mərkəz və yerli bölmələrlə iş şöbəsi

## Məqsəd:

AzQAC-nin Komitələrinin, Regional Mərkəzlərinin,yerli bölmə və ilk təşkilatlarının maddi-texniki bazasının və kadr potensialının gücləndirilməsi, mərkəzi və yerli səviyyədə səmərəli və özünü doğruldan humanitar fəaliyyətləri həyata keçirmək məqsədilə Milli Cəmiyyəti milli və beynəlxalq müstəvidə insanlara dəstək olan güclü humanitar təşkilata çevirmək.

## Fəaliyyətlər

Rayon və şəhər bölmələri üçün dəftərlər (albom tipli, üzərində aypara loqosu, rayon bölməsinin adı və ünvanı) və qələmlər (üzərində Cəmiyyətin loqosu və adı yazılan) hazırlanmışdır.
Silahlara qarşı mübarizə proqramı çərçivəsində 2016-cı ilin yekunlarına dair iclasda,İnsan alverinə qarşı mübarizə proqramı çərçivəsində Miqrasiya şöbəsi ilə birgə təhsil ocaqlarında keçirilən bilgiləndirici seminarlarda istirak edilmişdir.
Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında qısaca məlumat verilmiş,həmçinin rəhbərliklə görüşüb,AzQAC-a üzvlük haqqının keçirilməsi barədə danışılmışdır.
2016-cı il noyabr ayının 2 -də Bakı Regional Mərkəzində nizam-intizamın pozalması ilə əlaqəli olaraq idarə-rəisi-vitse-prezident Əziz Qocayev tərəfindən iclas keçirilmişdir.
Azərbaycan Tibb Universiteti bölməsinin təşkilatçılığı ilə Tibb Universitetində, Milli Elmlər Akademiyası bölməsinin təşkilatçılığı ilə Mərkəzi Elmi Kitabxanada baş tutan qanvermə aksiyalarında iştirak etmiş, qanvermək istəyən vətəndaşlar xeyriyyə işinə cəlb olunmuşdur.
Cəbhə xəttində baş vermiş aprel hadisələri zamanı AzQAC-ın prezidenti Novruz Aslanovla birgə idarə-rəisi-vitse-prezident Əziz Qocayev də cəbhəyanı rayonlarda olmuş, zərərçəkmiş evlərə baş çəkmişdir.
Regional Mərkəz və Yerli Bölmələrlə iş şöbəsinin müdiri Ağayar Hüseynov katibliyin tapşırığına əsasən cəbhə xəttindəki rayonlarla əlaqə saxlamış,itkilər və zərərlər haqqında məlumat almışdır.
2016-cı ilin fevral və mart aylarında AzQAC-ın idarə rəisi-vitse-prezident Əziz Qocayev, Regional Mərkəz və Yerli Bölmələrlə iş şöbəsinin müdiri Ağayar Hüseynov Sumqayıt və Bakı Regional Mərkəzlərinə yeni təyin edilən koordinatorların təyinatı ilə bağlı Regional Mərkəzlərdə olmuş, iclas keçirilərək RM-nə daxil olan rayon bölmə sədrlərinə müvafiq göstərişlər verilmişdir.
2016-cı ilin fevral və mart aylarında 2016-2020-ci illər üzrə "Strateji İnkişaf Planı" sənədinin dizayn işləri görülmüş, Azərbaycan və ingilis dillərində cəmi 1000 ədəd jurnal çap edilmişdir. Hazırlanmış jurnallar 5 Regional Mərkəzdə və Naxçıvan Muxtar Respublikası Komitəsində təqdim olunaraq, RM koordinatorları və RB sədrlərinin hər birinə paylanılmşdır.
Cari il ərzində AzQAC-ın bütün rayon, şəhər və sahə bölmələri tərəfindən müxtəlif bayram günləri münasibətilə humanitar yönümlü, eləcə də digər tədbirlər keçirilmişdir.AzQAC-nin rayon,şəhər və sahə bölmələrində Ramazan,Qurban,Novruz bayramları və 31 dekabr "Dünya Azərbaycanlılarının Həmrəylik Günü" ilə əlaqədar əhaliyə təqdim olunan yardımların statistik göstəriciləri tərtib olunaraq şəffaflıq naminə Milli Cəmiyyətin rəsmi internet səhifəsində işıqlandırılmışdır.
03.05.2016-cı il tarixində Azərbaycan Qızıl Aypara Cəmiyyəti Bakı Regional Mərkəzində I rübün hesabat iclası keçirilmişdir. İclasda AzQAC-ın, idarə rəisi-vitse-prezident Əziz Qocayev, Regional Mərkəz və Yerli Bölmələrlə iş şöbəsinin müdiri Ağayar Hüseynov, Bakı Regional Mərkəzinin (RM) koordinatoru Rəna İbrahimova və Bakı RM-nə daxil olan rayon bölmə sədrləri iştirak etmişdirlər.
Əziz Qocayev I rübdə görülən işlər haqqında məlumat vermiş,II rübdə nəzərdə tutulan tədbirlər və iyun ayında keçiriləcək növbəti hesabat seçki konfransına hazırlıq işlərindən danışmışdır.Rayon bölmələrinin sədrləri də öz növbəsində çıxış edərək I rübdə görülən işlər və keçirilən tədbirlər haqqında məlumat verib fikir mübadiləsi aparmışdırlar.
Rayon və şəhər bölmələri tərəfindən təşkil olunmuş bir çox yardımların edilməsində iştirak edilmişdir
2016 – cı il aprel,iyul və oktyabr aylarında Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Baş qərargahında tələbələrə istehsalat təcrübəsi ilə əlaqədar Regional Mərkəz və Yerli Bölmələrlə iş şöbəsinin müdiri Ağayar Hüseynov tərəfindən təlim keçirilmişdir.Təlimin əsas mövzusu təşkilatı məsələlər,regional mərkəz,rayon,şəhər və sahə bölmələrinin fəaliyyətləri,onların inkişafı,əlaqələrin qurulması və digər məsələlər barədə olmuşdur.Tələbələrə təşkilat idarəsi,regional mərkəz və yerli bölmələrlə iş şöbəsinin gördüyü işlər,rayon,şəhər və sahə bölmələri ilə əlaqələr barədə ətraflı danışılmışdır.Həmçinin, tələbələrin şöbə haqqındakı sualları cavablandırılmış və istehsalat təcrübəsində onlar üçün yaradılan şəraitə görə öz dərin təşəkkürlərini bildirmişlər.
2016-cı il fevralın 16- da İdarə rəisi-vitse-prezident Əziz Qocayevin sədrliyi ilə Azərbaycan Qızıl Aypara Cəmiyyəti Mingəçevir Regional Mərkəzində zona müşavirəsi keçirilmişdir.
Tədbirdə AzQAC-ın Regional Mərkəz və Yerli Bölmələrlə iş üzrə şöbənin müdiri Ağayar HüseynovAzQAC-ın Mingəçevir, Yevlax, Ağdaş, Şəki, Ağdam, Zaqatala, Balakən, Qəbələ, Oğuz, Göyçay, Ucar, Qax rayon bölmə sədrləri iştirak etmişlər.
Müşavirədə ilk təşkilatların yaradılması,üzvlərin sayının artırılması və üzvlük haqqının yığılması, Strateji plan və Qızıl Aypara Cəmiyyətinin struktur bölmələrində işin təşkili məsələləri müzakirə edildi. Bütün rayon bölmələrinin sədrləri öz gördüyü işlər haqqında məlumat vermişlər.
Hər rübün sonunda əsasən Bakı və Sumqayıt Regional Mərkəzlərində rübün yekununa dair görüşlər keçirilmiş, sədrlər dinlənilmiş və tapşırıqlar verilmişdir.
Azərbaycan Qızıl Aypara Cəmiyyətinin həyata keçirdiyi iş fəaliyyətində mühüm sənədlərdən biri olan "Strateji İnkişaf Planı" (2016-2020) artıq hazırlanıb çapdan çıxması və Regional Mərkəz və rayon bölmələrində "Vahid hesabat sistemi"nə keçilməsi ilə əlaqədar olaraq 27.05.2016-cı il tarixində AzQAC-ın Baş Qərargahında görüşlər baş tutmuşdur.
Bu görüşlər bütün Regional Mərkəzlərdə baş tutmuş və yeni hazırlanan "Vahid hesabat sistemi" barədə məlumat verilmişdir. İclasların sonunda "Strateji İnkişaf Planı" (2016-2020) təqdim edilmişdir.
2016-cı il mart ayının 02-də Bakı Regional Mərkəzinə daxil olan bölmə sədrlərinin iştirakı ilə ilin yekununa həsr olunmuş iclas keçirilmişdir. AzQAC-ın idarə rəisi-vitse-prezident Əziz Qocayev açaraq, AzQAC-ın prezidenti Dr.Novruz Aslanovun salamlarını bölmə sədrlərinə çatdırmış, görülən və görüləcək işlər barədə məlumatlar vermişdir.O,eyni zamanda qeyd etdi ki, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Bakı RM-nin koordinatoru vəzifəsinə yenicə təyin olunmuş Rəna İbrahimova bölmə sədlərinə təqdim etmiş,onlara 2016-cı ildə görüləcək işlər barəsində müvafiq tapşırıqlarını vermişdir.

AR Prezidenti Admintrasiyanın Rəhbəri Ramiz Mehdiyevə və onun müavini Zeynal Nağdəliyevə İcra Hakimiyyəti orqanlarına AzQAC rayon bölmələrinin işinin operativ həlli üçün, həmçinin, AR Təhsil Naziri Mikayıl Cabbarova təhsil müəssilərində AzQAC üzvlük haqlarının yığılmasına dair göstəriş verilməsi barədə məktublar ünvanlanmışdır.
Azərbaycan Qızıl Aypara Cəmiyyətinin idarə rəisi-vitse-prezident Əziz Qocayev may ayının 5-də İsmayıllı rayon bölməsində olmuşdur. Görüşdə rayonda keçirilməsi nəzərdə tutulan bütün humanitar, maarifləndirmə və digər tədbirlərin keçirilməsinə müvafiq tapşırıq və göstərişlərini vermişdir. Rayonda"Respublika günü"münasibətilə keçirilən tədbirdə və tədbirdən sonra imkansız ailələrə ərzaq yardımı paylanılmasında iştirak etmişdir.
2016-cı ilin iyun, iyul, avqust aylarında Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Nizamnaməsinə uyğun olaraq hesabat-seçki konfransları keçirilmişdir.
Rayon, şəhər və sahə bölmələrinin sədr və müavinləri seçilmiş, protokollaşdırılaraq RM və yerli bölmələrlə iş şöbəsinə təqdim edilmişdir.
2016-cı il ərzində təşkilat idarəsi rüblər üzrə Regional Mərkəz koordinatorları ilə mütəmadi görüşlər keçirmiş,gündəlik təşkilati məsələləri diqqət mərkəzində saxlamışdır.
2016-cı il ərzində yerli bölmələrin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində 50 yerli İcra Hakimmiyyəti orqanına müvafiq məktublar və müraciətlər göndərilmişdir.
2016-cı il üzrə Baş Qərargaha yerli bölmələr tərəfindən köçürülən maliyyə planının rüblər üzrə təmin olunması təşkil olunmuşdur.
2016-cı il üzrə Sahə bölmələrinin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində 10 məktub və müraciətlər müvafiq olaraq universitet rektorlarına və müəssisə rəhbərlərinə göndərilmişdir.



# Gənclər və könüllülər şöbəsi və Gənclər komitəsi

## Məqsəd:

Qızıl Aypara Cəmiyyətində Gənclər və könüllülərin cəlbolunma idarəetmə sisteminin inkişaf etdirilməsi və bununla sosial çəhətdən zəif müdafiə olunan və qayğıya ehtiyacı olan əhaliyə könüllü xidmətin səmərəliliyinin artırılmasıdır.
2016-2020 - ci illərdə Cəmiyyət gənclərin və könüllülərin işini "Gənclərin cəlbolunma strategiyası" üzərində qurur. Bu strategiyanı əsas götürərək kütləvi aksiyalar, kompaniyalar,dəyirmi masalar, treyninqlər, kurslar və s. tədbirlər keçirilməsinə yanvar ayından start verilmişdir.
Belə ki, Qızıl Aypara Cəmiyyətinin yerli bölmələrində gənclər və könüllülər şöbəsi tərəfindən iş planları və hesabatları kvartallar üzrə qəbul edilmişdir.

## Fəaliyyətlər

### Küçə və yollarda təhlükəsiz davranış vərdişlərinin təbliği.

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin 2016-2020-ci illər strategiyasına əsaslanaraq Küçə və yollarda təhlükəsiz davranış vərdişlərini təbliğ etməklə əhali arasında "Piyadaların təhlükəsizliyi naminə" adlı təbliğat yönümlü tədbirlərin həyata keçirilməsi ilə əlaqədar il ərzində maarifləndirmə işləri aparılmışdır. Yol təhlükəsizliyi və ətraf mühitin qorunması layihəsi çərçivəsində Kürdəmir, Ağdaş, Ucar rayonlarında məktəblilər arasında rəsm müsabiqəsi keçirilmişdir. Rəsm müsabiqəsində qalib gələn uşaqlar mükafatlandırılmışdır.
Eyni zamanda 2016-cı il noyabrın 20-də uşaq bağçasında, **Ümumdünya Yol Nəqliyyat hadisə qurbanlarının xatirə günü** qeyd olunmuşdur. Bu ilin şüarı **"Sürət öldürür! Sürətə qarşı addımlar ataq!".** Tədbir Azərbaycan Qızıl Aypara Cəmiyyəti, Uşaq bağçası, Bakı Dövlət Yol Polisinin birgə əməkdaşlığı nəticəsində təşkil olunmuşdur.
Tədbirin açılışı yol-nəqliyyat qəzalarında həlak olmuşların xatirəsinin 1 dəqiqəlik sükütla yad edilməsilə başlanmışdır. Sonra həzin musiqi sədaları altında polis formasında olan uşaqlar bu günlə əlagədar müxtəlif kompozisiyalar, şerlər, şuarlar səsləndirmiş və nümayişlər təqdim etmişlər.
Tədbir boyu Yol-Nəqliyyat hadisələrində həlak olmuş məşhurların şəkilləri nümayış etdirilmiş və eyni zamanda məktəblilər tərəfindən bu mövzu ilə əlaqədar rəsmlər çəkilmişdir.
Tədbirin sonunda iştirakçılar tərəfindən yol-nəqliyyat hadisələrinin qurbanlarının xatirəsinə ağ şarlar havaya uçurulmuşdur. Azərbaycan Qızıl Aypara Cəmiyyəti tədbirdə iştirak edən bütün uşaqlara xatirə hədiyyələri təqdim etmişdir.
Eyni zamanda Qızıl Aypara Cəmiyyəti 46 saylı məktəbdənkənar təhsil mərkəzi ilə əməkdaşlıq edərək məktəblərdə 1500-ə yaxın şagird arasında yol təhlükəsizliyi mövzusunda təlimlər aparmış, prezentasiyalar təqdim etmişdir. Bunların nəticəsi olaraq, həmin təlim alan şagirdlərlə birgə piyadaların təhlükəsizliyi ilə əlaqədar əhalinin diqqətini cəlb etmək məqsədilə, Bakının mərkəzi küçələrində yürüş keçirmişlər. Yol boyunca könüllülər və uşaqlar əhali arasında yol təhlükəsizliyi qaydaları və insanların bu qaydalara riayət etməsinin vacibliyi haqqında əyani vasitələrdən ( vərəqələr, piyadaları əks etdirən maketlər, nişanlar) istifadə edərək təbliğat fəaliyyətini həyata keçirmişlər. Piyadaları əks etdirən maketlər könüllülərin və uşaqların vasitəsilə ilə piyadaların yol keçməsi üçün zolaqlı yerüstü, yeraltı keçidlər, avtobus dayanacaqları və s. kimi sahələrdə yerləşdirərək (fleşmob), insanların təhlükəsizliyi üçün bu yerlərdən istifadə edilməsinin vacibliyini bir daha nümayiş etdirmişlər. Eyni zamanda fərqlənən insanlara düzgün yol qaydalarına riayət edib, piyadalar üçün ayrılan yerlərdən istifadə etməsinə görə kiçik hədiyyələr təqdim edilmişdir. Həmçinin, gənclər və yeniyetmələr arasında müxtəlif yarışlar keçirilmişdir, qalib gələnlərə həvəsləndirici mükafatlar təqim olunmuşdur.
Tədbirlər geniş şəkildə kütləvi informasiya vasitələri tərəfindən işıqlandırılmışdır.

### Respublikanın rayonlarında yerləşən sosial cəhətdən zəif olan, kimsəsiz uşaq evlərində yaşayan, sağlamlıq məhdudiyyəti olan uşaqlarla könüllülərlə birgə müxtəlif səpqidə tədbirlər həyata keçirilmişdir.




-Belə ki, "Balu" əyləncə mərkəzində 2 dəfə olmaqla 100 uşağa, "TomJerry və Atrium" əyləncə mərkəzlərində 120 uşağa, İmperator İbo restoranında isə 50 kimsəsiz uşaq üçün əyləncəli musiqili tədbirlər keçirilmiş və sonda uşaqlara müxtəlif hədiyyələr verilmişdir.

**Gənc könüllülər və humanistlik mövzusunda foto müsabiqənin aparılması**

- Cəbhəyanı bölgələrə yaxın olan rayonlarda - Tərtər, Goranboy və Ağdamda məktəblilər arasında "Biz sülh istəyirik", "Müharibə uşaqların gözü ilə" mövzusunda rəsm və inşa müsabiqəsi keçirilmişdir. Rəsmdə iştirak edən bütün uşaqlara hədiyyələr verilmişdir. I,II,III yeri tutan uşaqlara isə fərqləndirici hədiyyələr verilmişdir. Tədbirdə 230 uşaq iştirak etmişdir.

**Qızıl Aypara Cəmiyyətinin yaranma günü ilə əlaqədar**

-Onkoloji uşaq klinikasında 340 uşaq üçün tədbir keçirilmişdir. Tədbirdə kukla teatrı tamaşa göstərmiş, uşaqlara hədiyyələr verilmiş, üzlərində faceart çəkilmişdir.



**"Amazon" əyləncə mərkəzində şəkər xəstəliyi olan uşaqlar üçün tədbir keçirilmişdir.**

-Belə ki, miqrant və şəkər xəstəliyindən əziyyət çəkən 30 uşaq üçün tədbir keçirilmişdir. Tədbirdə uşaqlar özləri üçün pizza hazırlamış, onlara əyləncəli proqram təqdim olunmuş və yemək süfrəsi açılmışdır.

**"Brizol" göz xəstəxanasında miqrant uşaqların müayinəsi və müalicəsi aparılmışdır.**

-10 nəfər miqrant uşağın gözü müayinə edilmiş, müalicə yazılmışdır.

**1 iyun – "Uşaqların Beynəlxalq müdafiəsi günü" ilə əlaqədar**

-Uşaq evində, Sabunçuda psixiatriya klinikasında, "Balu əyləncə mərkəzində" uşaq evinin uşaqları üçün tədbir keçirilmişdir.

-Eyni zamanda da, Doğum evində gənc anaların sağlamlığı ilə bağlı görüş keçirilmişdir.

**Könüllülərə dair siyasəti inkişaf etdirməklə müxtəlif proqramlara aid kütləvi aksiyaların keçirilməsi (Könüllünü öz daxilində tap, Gənclərin cəlbolunması strategiyasından (YES) istifadə etmək şüarı ilə)**

-Yerli bölmələrin təlimatçıları, sərhədyanı rayon bölmələrinin sədrləri, yeni könüllülər üçün YES strategiya haqqında məlumat verilmişdir. Ümumiyyətlə, bütün şöbələrdə keçirilən gənclər və könüllülərə aid tədbirlər YES strategiyasının üzərində qurulmuşdur.

## Təlimlər

-8 rayon bölməsində 200 gənc könüllü üçün modul, liderlik, planlaşdırma,sosial treyninqlərin keçirilmişdir.

-Eyni zamanda da, Azərbaycan Dillər Universiteti, Turizm Universitetinin tələbələri Cəmiyyətdə təcrübə mübadiləsində olmuşlar. Onlara da modul,liderlik,planlaşdırma ,sosial treyninqlər keçirilmişdir.

**Təhsil orqanlarında İlk yardım və BQX/QA Hərəkatının tarixi və fəaliyyəti haqqında məlumatların yayılması**

-Bir çox orta və ali təhsil müəssisələrində, cəbhəyani zonalarda gənc könüllülər üçün və icmada fəaliyyət göstərən könüllülər üçün ilk yardım , QX və QA hərəkatının tarixi və fəaliyyəti haqqında məlumatlar verilmış təlimlər aparılmışdır.

**Gənclərin cəlbolunması strategiyasının və qeyri – infeksion xəstəliklərin gənclər arasında maarifləndirilmə işinin aparılması**

-Tibb, İncəsənət universitetilərində və Sabunçu rayonunun gənclər evində gənclərin cəlbolunması strategiyasının vəqeyri – infeksion xəstəliklər haqqında prezentasiya aparılmışdır.

**Müxtəlif ali təhsil ocaqlarında və gənclər arasında qanvermə aksiyalarının keçirilməsi**

-Tibb, Texniki və Pedaqoji Universitetlərdə qanvermə aksiyası keçirilmişdir.

**Könüllülər şurasının möhkəmləndirilməsi daxil olmaqla könüllü idarəçilik sistemini, elektron qeydiyyatını və könüllülərə dair siyasəti inkişaf etdirməklə:**

-Kompyuter olan RB-də könüllülərin qeydiyyatının aparılması davam etdirilmişdir.

-Kompyuter olmayan yerlərdə isə xüsusi blanklardan istifadə davam etdirilmişdir.

**15 sentyabr "bilik günü" ilə**

-əlaqədar məktəblərdə tədbirlər keçirilmişdir.280 məktəbliyə dərs ləvazimatları və çantalar təqdim olunmuşdur.

**Yay istirahət düşərgəsi**

-Cəbhə bölgələrində yaşayan sosial cəhətdən zəif olan ailədən 150 nəfər uşaq üçün Gəncə şəhərində yay istirahət düşərgəsi təşkil olunmuşdur. Həmin Düşərqə 150 uşağı əhatə etməklə 3 mərhələdə təşkil olunmuşdur. Tədbir zamanı uşaqlar Azərbaycanın tarixi muzeylərində olmuş, Hacıkəndə, Göygölə səfər etmişlər. İstirahət vaxtı uşaqlarla təlimlər, intellektual oyunlar, rəsm, idman, toxuculuq və s. kimi məşğələlər aparılmışdır.

**1 dekabr "AİDS-lə mübarizə günü" ilə əlaqədar**

-Sumqayıt şəhərində və Sabunçu rayon gənclər evində gənclər üçün tədbir keçirilmişdir. Tədbirdə 600 gənc iştirak etmişdir. Tədbirdə uşaqlara SPİD haqqında prezentasiya təqdim olunmuşdur. Onlardan SPİD-ə qarşı test analizi götürülmüşdür.

**5 dekabr "Könüllülər günü" ilə əlaqədar**

-Sumqayıt şəhərində və Akademiyanın Milli Kitabxanasında Bilik Fondu ilə birlikdə müxtəlif təşkilatların könüllüləri arasında bilik yarışması keçirilmişdir. Sonda yarışmada iştirak edən könüllülərin hamısına simvolik hədiyyələr təqdim olunmuşdur. I yerə isə Qızıl Aypara Cəmiyyətinin könüllüləri çıxmışdır və onlara fərqləndirici diplom, kubok, hədiyyələr verilmişdir.

-Eyni zamanda, Sumqayıtda gənc könüllülər arasında qanvermə aksiyası keçirilmişdir.

# “ Fandreyzinq “ ( Fondların artırılması və gəlirgətirmə )

## Məqsəd:

AzQAC-ın maliyyə bazasının gücləndirilməsi məqsədilə maliyyə mənbələrinin artırılması.

## Fəaliyyətlər

İl ərzində şöbənin əsas fəaliyyəti kimi, AzQAC-ın maliyyə bazasının gücləndirilməsi məqsədilə maliyyə mənbələri artırılmış, ianələrin toplanılması işi yerinə yetirilmiş, Cəmiyyətin Strateji Planına uyğun olaraq, müxtəlif donorlarla əməkdaşlıq qurulmuş, gəlir mənbələri şaxələndirilmiş, mövcud olan işgüzar əlaqələr inkişaf etdirilmişdir. Bu məqsədlə, şöbə tərəfindən bir sıra şirkət, bank, və s. obyektin məsul şəxsləri ilə işgüzar görüşlər keçirilmişdir. Həmin görüşlərdə AzQAC-nin humanitar missiyasına uyğun olaraq, Cəmiyyətlə mümkün ola biləcək əməkdaşlıq sahələri müzakirə edilmişdir.
Cari il ərzində Bakı şəhərində fəaliyyət göstərən müxtəlif ticarət, iaşə obyektləri ilə razılıq əldə olunaraq həmin yerlərdə humanitar fəaliyyətlərə maliyyə toplamaq məqsədilə müvafiq qaydada 55 ədəd yeni ianə qutusu yerləşdirilmişdir. İl ərzində Bakı şəhərində yerləşdirilən ianə qutularından gələn gəlir toplanaraq müvafiq qaydada AzQAC-ın humanitar fəaliyyətləri üçün mühasibatlığa mədaxil edilmişdir.
Qızıl Aypara loqolu ianə qutularının yerlərdə yerləşdirilməsinin əsas məqsədi toplanan vəsaitlər hesabına aztəminatlı insanlara, müalicəyə ehtiyacı olanlara, fövqəladə hallar və təbii fəlakətlər zamanı zərər çəkmişlərə, tənha qocalara, kimsəsizlərə müvafiq yardımlar etməkdir.
14 sentyabr tarixində „Access Bank“ın maliyyə yardımı ilə (2000 azn) məktəb ləvazimatları (məktəbli çantası, qələm, dəftərlər, xətkeş, pozan, rəngli qələmlər, dəftər üzləri, penal, rəsm dəftərləri, və s.) alınmış və aztəminatli ailələrin uşaqlarına, məcburi köçkün məktəblərində təhsil alan uşaqlara paylanmışdır.
11 sentyabr tarixində „Nikoil Bank“ın təşəbbüsü və iştirakı ilə Nəsimi rayon bölməsində 50 ailəyə (tənha qocalara) Müqəddəs Qurban Bayramı münasibəti ilə qurban payları verilmişdir.
BQXK-nın Azərbaycandakı Nümayəndəliyi ilə 2016-cı ildə Cəmiyyətin “fundraising” sahəsinin inkişafı məqsədilə müvafiq qaydada görüşlər keçirilmişdir.
10 dekabr tarixində BQXK-si tərəfindən 30 ədəd 20x20 ölçüsündə kiçik ianə qutuları, 80x30 ölçüsündə böyük ianə qutuları və 10100 (on min yüz) ədəd bukletlər hazırlanaraq Fandreyzinq şöbəsinə təhvil verilmişdir.
Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətlərinin təcrübəsinə əsaslanaraq və daha operativ qaydada ianələrin toplanılması üçün (ATM-lər (bankomat) vasitəsi ilə)) hazırlanmış layihə ilə əlaqədar işgüzar görüşlər keçirilmişdir və layihənin gələcəkdə həyata keçirilməsi üçün müvafiq işlər görülür.
2016-cı ildə Şirkət və müəssisələrin Azərbaycan Qızıl Aypara Cəmiyyəti ilə birgə əməkdaşlıq etməsi üçün müvafiq məktublar göndərilmiş (1500 şirkət və müəssisə) və müəyyən müsbət cavablar alınmışdır.
AzQAC-ın 2016-cı ildə ianə qutularının yerləşdirdiyi tərəfdaş şirkətlər:

**Bazarstore, Araz, Favorit, Fresko, Səbət, Rahat, Premimmart, Lider-AS, Armostore, Megastore, Bolmart, Adore Market, Accessorize, Adidas, Toy Store, Koton, Pink, Six, Adl, Puma, KFC, Oven, Sel Home, U.C.Benetton, Nikoil Bank, Beynəlxalq bank, Çudo Peçka, Bon Appetit, Böyük Firat, Ravira, Villa Pizza, Namlı.**

**İl ərzində ianə qutularından ümumilikdə cəmi 46.684,66 AZN vəsait toplanılmış və müxtəlif humanitar məqsədlər (maddi yardımlar, anbara ehtiyat ərzaq və digər ləvazimatların alınması) üçün istifadə olunmuşdur.**





# Humanitar Yardım

## Məqsəd:

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin imkanlarını və insanlığın gücünü səfərbər edərək, yardıma ehtiyacı olan ahıl, tənha – xəstə, qaçqın və məcburi köçkün ailələrə, aztəminatlı və təbii fəlakətlərdən,texnogen hadisələrdən zərər çəkmiş zavallı insanlara,miqrantların müəyyən qisminə müxtəlif formada köməklik göstərmək, humanitar dəyərləri rəhbər tutaraq insanlar arasında mərhəmət və xeyirxahlıq hisslərini aşılamaq.

## Fəaliyyətlər

AzQAC Katibliyinin Humanitar yardım şöbəsinə il ərzində çox sayda ərizə, telefon zəngi və müxtəlif səpkili müraciət daxil olmuşdur. Müraciətlərə fərdi qaydada baxılmış, imkan daxilində humanitar yardım göstərilmişdir. Daxil olan müraciətlərin bəzilərinin həlli Cəmiyyətin səlahiyyətləri xaricində olduğundan aidiyyatı üzrə müvafiq qurumlara göndərilmiş və ya bu barədə müraciət edən tərəf yazılı surətdə məlumatlandırılmışdır.Humanitar yardım göstərilməsi ilə bağlı daxil olan yazılı və şifahi müraciətlər əsasında sosial vəziyyəti araşdırmaq məqsədilə 12 ünvana baxış keçirilmişdir. Bunlardan 3-ü Bakı şəhərində şöbə əməkdaşları tərəfindən, digər 8-i bölgələrdə AzQAC-ın aydiyyatı ərazi üzrə yerli bölmə əməkdaşlarına verilən tapşırıqlar əsasında həyata keçirilmiş və ehtiyaclı insanlar (ailələr) nmümkün imkanlar daxilində müvafiq köməkliklə təmin edilmişlər.
AzQAC-ın Vitse-prezidenti Ramazan Sultanovun və Humanitar yardım şöbəsinin müdiri Əliağa Abbasovun iştirakı ilə hesabat ili ərzində hər həftənin çərşənbə günü Bakı Regional Mərkəzində yardıma ehtiyacı olan aztəminatlı insanların qəbulu təşkil edilmişdir.
İl ərzində Cəmiyyətin missiyasına aidiyyatı olan zavallı insanların rayon bölmələri üzrə qeydiyyatının aparılması və qeydiyyat siyahılarının yenilənməsi işi daima davam etdirilmişdir. Aztəminatlıların qeydiyyata alınması AzQAC Katibliyinin Humanitar yardım şöbəsinə daxil olan müraciətlər əsasında, eyni zamanda yerli bölmələrin özləri tərəfindən müvafiq kateqoriyalara uyğun müəyyənləşdirilmişdir.

**Əməkdaşlıq və humanitar tədbirlər:**
Respublikada fəaliyyət göstərən müxtəlif xarici, yerli humanitar və özəl təşkilatlarla əməkdaşlıq barədə müxtəlif səviyyədə işlər aparılmışdır. 2016 –cı il ərzində İran İslam Respublikasının Qızıl Aypara Cəmiyyətinin Bakı şəhərində fəaliyyət göstərən klinikasında 484 nəfər aztəminatlı xəstənin təmənnasız tibbi müayinə keçməsi üçün köməklik göstərilmişdir.Belə ki, Milli Cəmiyyətə müraciət edən həmin ehtiyaclı(aztəminatlı) xəstələr klinika tərəfindən ayrılan və 60 AZN güzəştli limit həddi müəyyən edilmiş tibbi –müayinə göndəriş kartları ilə təmin edilərək müayinələri təşkil edilmişdir.Hesabat ilində təmənnasız göstərilmiş tibbi müayinənin ümumi məbləği 29.040 manat təşkil etmişdir.
Cəmiyyətin daim diqqətində olan zavallı insanların iştirakı ilə müxtəlif görüşlər təşkil olunmuşdur. Hesabat dövründə Azərbaycan QAC-in yerli bölmələri tərəfindən belə humanitar – xeyriyyə tədbirləri həyata keçirilmişdir. Bu tədbirlərdə yüzlərlə aztəminatlı zavallı insanlar, valideyin qayğısından məhrum olmuş uşaqlar iştirak etmiş, onlara müxtəlif yardımlar paylanmış, onlar üçün süfrələr açılmış, əyləncəli proqramlar təşkil edilmişdir.
Hesabat ili dövründə şöbəyə fərdi, yazılı, telefon zəngləri vasitəsilə şifahi, ümumulikdə 561 müraciət daxil olmuşdur. Bunlardan 14-ü yazılı, 1 teleqram, 62-si fərdi qaydada, humanitar yardım göstərilməsi ilə bağlı, 484-ü güzəştli qaydada təmənnasız tibbi müayinədən keçməklə bağlı olmuşdur. Cəmiyyətin səlahiyyətlərinə aid olmayan digər müraciətlərlə bağlı ərizəçilərlə izahat xarakterli söhbətlər aparılmışdır.
Şöbəyə daxil olan və bilavasitə Cəmiyyətin missiyasına uyğun olan bütün müraciətlərə vaxtlı-vaxtında baxılmış, icraya yönəldilərək həll edilmişdir.Şöbə tərəfindən ianə qutularından toplanan maliyyə vəsaiti hesabına 14 nəfərə, mərkəzi anbardan 10 nəfərə ərzaq yardımı, Qurban Bayramında şəxsi ianə hesabına 27 nəfərə, qarşılıqlı əməkdaşlıq çərçivəsində 50 nəfərə ət yardımı edilmişdir. 5 miqrant ailəsinə də bu yardımlar hesabına köməklik göstərilmişdir.Ümumilikdə, 101 nəfərə 947 AZN məbləğində humanitar yardım edilmişdir. Ehtiyacı olan 27 nəfər şöbədə qeydiyyata götürülmüşdür.
Şöbə əməkdaşları 4 müxtəlif səpkili seminar və təlimlərdə iştirak etmiş, ali təhsil ocaqlarından Milli Cəmiyyətə təcrübə keçmək üçün göndərilmiş 28 tələbəyə Humanitar yardım siyasəti haqqında mühazirələr oxunmuşdur.
2016-cı il ərzində müəyyən maliyyə çətinliklərinə baxmayaraq humanitar fəaliyyətlər mümkün imkanlar daxilində davam etdirilmişdir.
Bu humanitar fəaliyyətlər müxtəlif mənbələrdən daxil olan vəsaitlər hesabına həyata keçirilmişdir

- İanə qutularından, təmənnasız ayrılmış tibbi müayinə kartları, şəxsi vəsait və s. mənbələrdən daxil olan vəsaitlər hesabına;
- AzQAC–ın şəhər və rayon bölmələrinin daxili imkanları hesabına.

AzQAC öz daxili imkanları, tərəfdaş qurumlar və donor təşkilatlarının dəstəyi ilə Ramazan, Qurban, Novruz bayramları və 31 dekabr “Dünya Azərbaycanlılarının Həmrəylik Günü” ilə əlaqədar ehtiyacı olan insanlara humanitar yardımlar etmişdir (əsasən ərzaq bağlamaları).



Ümumi olaraq yardımlar aşağıdakı qaydada olmuşdur:

**Ramazan bayramı** ilə əlaqədar **3.100 nəfərə—72.300 manat**
**Novruz bayramı** ilə əlaqədar **3650 nəfərə—68.100 manat**

**Müqəddəs Qurban bayramı** ilə əlaqədar **5.448 nəfərə—80.424 manat**

**Yeni il və “Dünya Azərbaycanlılarının həmrəylik günü”** əlaqədar

**2.547 nəfərə - 44.200 manat**

# Miqrasiya və miqrantlar diqqət mərkəzində

## Məqsəd:

Ölkəyə təşrif buyuran miqrantların, həmçinin, qaçqın və məcburi köçkünlərin normal şəraitdə yaşaması üçün onların bütün yerli və beynəlxalq hüquqlarla təmin olunmasında vəkillik etmək, ölkədə yaşayan miqrantlara daim diqqət və qayğı göstərərək əsas ehtiyaclarını öyrənmək və dəstək olmaq.

## Fəaliyyətlər

AzQAC-ın Miqrasiya şöbəsi tərəfindən Azərbaycanda müvəqqəti yaşayan əcnəbilər və miqrant statuslu adamlar üçün pulsuz təşkil olunan Azərbaycan dili kursları 2016-cı ildə də müvəffəqiyyətlə davam etdirilmişdir. 2016-cı il yanvar-sentyabr aylarında (9 ay) kursu bitirən 32 miqrant müvafiq sertifikatlarla təmin olunmuşdur. **2016-cı ilin oktyabr ayından** növbəti kurs öz işinə başlamışdır. İlkin olaraq 17 miqrant kursa yazılmış hazırda onların sayı dövri olaraq 34 nəfərə çatmışdır. Azərbaycana pənah gətirən miqrant ailələri əsasən Suriya, Əfqanıstan, İraq, İran, Pakistan, Yəmən və digər ölkələrdəndir. Bu kurs əvvəlki qaydada həftədə 2 gün ən çox miqrant ailələrini öz əhatəsində birləşdirən və AzQAC-ın tərəfdaşlarından olan BMT QAK-ın "HAYAT" Beynəlxalq Humanitar Təşkilatının nəzdində yaratdığı Qaçqın Qadın və Gənclər Mərkəzində, 2 gün isə AzQAC-ın Bakı ofisində həyata keçirilir;
İl ərzində Azərbaycan dili kursunda iştirak edən miqrantlara AzQAC-ın İlk Yardım sektoru tərəfindən 2 dəfə ödənişsiz İlk Yardım təlimi keçirilmişdir

**Azərbaycan Qızıl Aypara Cəmiyyəti və Beynəlxalq Miqrasiya Təşkilatı arasında əməkdaşlıq görüşü**
**12 yanvar 2016-cı il tarixində** Azərbaycan Qızıl Aypara Cəmiyyəti və Beynəlxalq Miqrasiya Təşkilatı arasında AzQAC-nin Baş qərarqahında görüş keçirilmişdir. Qeyd edək ki, 2016-cı ildə AzQAC və BMqT birgə əməkdaşlığı çərçivəsində respublika üzrə orta və ali təhsil müəsisələrində AzQAC-nin rayon və şəhər bölmələri tərəfindən İnsan Alverinə Qarşı Mübarizə mövzusunda seminarlar təşkil olunmuşdur. Görüşün məqsədi gələcəkdə bu kimi seminarların təşkil olunmasının müzakirəsi olmuşdur.
Keçirilmiş seminarlar barəsində yaranmış problemlər və gələcəkdə bu kimi problemlərin olmaması üçün yeni mexanizimlərin tətbiq olunması və yeni təkliflərin verilməsi müzakirə edilmişdir. Gələcəkdə daha da mükəmməl şəkildə keçirilməsi üçün lazımi tədbirlərin görülməsi qərara alınmışdır.
Görüşdə AzQAC-nin İcraçı Katibinin müavini Şaban Şayev, Miqrasiya şöbəsinin müdiri Məmməd Kətanov, Miqrasiya şöbəsinin əməkdaşı Sona Hacıyeva, AzQAC-ın Bakı Regional Mərkəzinin rayon bölmə sədrləri, BMqT-nin Vyana Ofisinin nümayəndəsi Mayra Albu, BMqT-nin Bakı ofisinin nümayəndəsi Könül Kərimova iştirak etmişdirlər.

**Uşaqların sağlamlığı ölkəmizin gələcəyidir!**
Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Gənclər Komitəsi, Gənclər və könüllülər, Miqrasiya şöbələrinin birgə təşkilatçılığı ilə miqrant uşaqlar üçün daha bir xeyirxah aksiyası keçirilmişdir. Gənclər Komitəsinin, Gənclər və könüllülər şöbəsinin pilot layihəsinə əsasən sosial cəhətdən zəif olan yerli və miqrant ailələrin gənc qızlarına peşəkar ustalar (saç, manikür, pedikür) tərəfindən sənət öyrədilməsi və işlə təmin olunması və sosial cəhətdən zəif olan ailələrin uşaqlarının, miqrant və şəkərli diabet olan uşaqların təmənnasız olaraq həkim müayinəsindən keçirilməsi yönümündə tədbirlər keçirilib.

**25 fevral 2016-ci il tarixində** Bakı şəhərində yerləşən "Brizol" göz klinikasında baş tutan tədbirə İsrail Magen David Adom tərəfindən cəmiyyətə hədiyyə edilən Təcili yardım ambulansı ilə gətirilən gözləri zəif olan miqrant uşaqların təmənnasız müayinəsi və müalicəsi keçirilmişdir. Klinikanın həkimi, cərrah Günay Əliyeva 5 nəfər uşağın gözlərini müayinə etmiş, sonda eynəyə ehtiyacı olanlara eynək, müalicəyə ehtiyacı olan uşaqlara isə müalicə təyin etmişdir. Hər ay yuxarıda göstərilən kateqoriyadan olan 5 uşağın müayinə və müalicəsini Klinika təmənnasız olaraq öz üzərinə götürmüşdür.

**Miqrantların Azərbaycan cəmiyyətinə inteqrasiyası**
Miqrasiya şöbəsi 8 mart Beynəlxalq Qadınlar günü münasibətilə miqrantlarla Azərbaycan dili dərsi Martın 7-də qadınlara həsr olunmuş, qadının, ananın cəmiyyətdəki rolundan danışılmış və onlara şirniyyat süfrəsi açılmışdır. Müdavimlər anaya, qadına, ana vətənə aid şerlər s öyləmiş və bu mövzuda uşaq təxəyyülü ilə şəkillər çəkmişlər.Daha sonra kursun müəllimi Sona Hacıyeva Novruz Bayramının özəlliyindən, adət-ənənələri, çərşənbələr və onun Azərbaycan xalqının həyatındakı rolundan danışmışdır. O, şərq xalqlarının Novruz adət və ənənələrindən misallar çəkərək bu bayramın xalqlar arasında bir mədəni bağ olduğunu dilə gətirdi.Əfqan, iranlı, pakistanlı və suriyalı, yəmənli ərəb müdavimlər də öz bayramlarından danışdılar.
Tədbirdə Novruza, bahara, təbiətə aid Azərbaycan, əfqan, ingilis və fars dillərində şerlər oxunmuşdur. Tədbirdə miqrant uşaqlara Novruz bayramı münasibətilə Azərbaycan Dövlət Dram Teatrında keçiriləcək bayram tədbirində iştirak üçün AzQAC tərəfindən hədiyyəli bilet təqdim edilmişdir.
AzQAC-in ölkədə yaşayan miqrantlara qayğı göstərməsi bir ənənə halını almışdır. Bu məqsədlə il ərzində AzQAC Miqrasiya şöbəsi tərəfindən miqrantlar üçün ölkənin tarixi abidələri və muzeyləri ilə tanışlıq gəzintiləri təşkil olunmuşdur. Həmçinin, AzQAC-ın Miqrasiya şöbəsi tərəfindən təşkil olunan Azərbaycan dili kursunda iştirak edən miqrantlar dili daha da təkmilləşdirmək üçün Sona Hacıyeva və AzQAC –ın həmkarlar təşkilatı tərəfindən Azərbaycan Akademik Milli Dram və Musiqili Komediya teatrlarına tamaşalara, muzeylərə baxışlara dəvət olunmuşlar.
Azərbaycan Qızıl Aypara Cəmiyyəti uzun illərdir ənənəvi qaydada, xüsusilə də, qaçqın və məcburi köçkünlərə humanitar yardımlar edir. Miqrasiya, Humanitar yardım, Saglamlıq və Qayğı, Gənclər və Könüllülər, Fundreyzinq şöbələrinin əməkdaşlığı çərçivəsində bu ildə görüşlər təşkil olunmuş onlara geyim əşyaları, ilk yardım təlimləri, sağlam həyat tərzi üzrə maarifləndirmə sessiyaları, məktəb uşaqlarına məntiqi- psixoloji təlimlər, çantalar, dərs ləvazimatları və s. Humanitar yardımlar göstərilmişdir

Mütəmadi olaraq ehtiyaclı insanlar, o cümlədən, ölkə ərazisinə pənah gətirmiş yoxsul miqrant ailələri Az QAC-ın Bakı ofisinə müxtəlif problemlərlə bağlı müraciətlər edirlər. Bu müraciətlərə baxılaraq münasib qaydada müvafiq həll yolunu tapır. Müəllimə Sona Hacıyeva və İcmada Sağlamlıq layihələri koordinatoru Mətanət Qaraxanova tərəfindən imkansız miqrant ailələrinin evlərinə mütəmadi baş çəkilir, fəal ayparaçılar və könüllülər tərəfindən onlara lazımı ev və geyim əşyaları ilə yardım edilir.
Bu böyük işin bir hissəsi olaraq Azərbaycan Qızıl Aypara Cəmiyyəti Azərbaycan Dövlət Miqrasiya Xidməti İdarəsi ilə birgə (AzQAC) Katibliyinin konfrans zalında ***Novruz bayramı*** münasibətilə **2016-cı il martın 16-da 6** miqrant ailəsi ilə görüş keçirərək onları bayram münasibtilə təbrik etmiş və Cəmiyyət tərəfindən bayram sovqatı paylanılmışdır.
Tədbirdə AzQAC rəhbərliyi adından İcraçı Katibin müavini Şaban Şayev, Azərbaycan Dövlət Miqrasiya Xidməti İdarəsinin Qaçqınlıq Statusunun Müəyyənləşdirilməsi İdarəsinin rəis müavini Namik Cəfərov, Miqrasiya şöbəsinin müdiri Məmməd Kətanov iştirak etmışlər.Miqrantlar təbrikə və bayram sovqatına görə AzQAC-ın prezidenti, Milli Məclisin deputatı, cənab Novruz Aslanova və AzDMXİ-nin rəisi Firudin Nəbiyevə öz təşəkkürlərini bildirmişlər.
Cari ilin "Ramazan" bayramı münasibəti ilə əlaqədar olaraq AzQAC Miqrasiya şöbəsinin təşkilatçılığı ilə ölkəyə pənah gətirmiş 16 miqrant ailəsinə bayram sovqatı olaraq ərzaq bağlamaları təqdim olunmuşdur.
1 iyun "Uşaqların Beynəlxalq Müdafiəsi" günü münasibətilə AzQAC-ın Miqrasiya şöbəsinin təşkilatçılığı ilə növbəti Azərbaycan dili dərsində dərsdə iştirak edən valideynlərin uşaqlarına hədiyyələr verilmişdir. Şirniyyat süfrəsi ilə şer və nəğmələrlə yadda qalan bir gün qeyd edilmişdir.

**29-30 iyul 2016-cı il tarixlərində** İnsan Alverinə Qarşı Mübarizə günü ilə əlaqədar olaraq Beynəlxalq Miqrasiya Təşkilatının təşkilatçılığı ilə Naxçıvan Müxtar Respublikasında təşkil olunan tədbirdə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Miqrasiya şöbəsinin müdiri Məmməd Kətanov iştirak etmişdir.

Bakı şəhəri 42 saylı orta məktəbin 2-ci sinif şagirdi, dərs əlaçısı, Qızıl Aypara Cəmiyyətinin azyaşlı könüllüsü Ziya Nəsibli 6 ədəd məktəb çantasını Miqrasiya şöbəsində ehtiyacı olan 3-ü qız və 3-ü oğlan olmaqla 6 məktəbliyə təqdim etmişdir.

·**2016-cı ildə** AzQAC və Beynəlxalq Miqrasiya Təşkilatının birgə əməkdaşlığı nəticəsində Milli Cəmiyyətin bütün rayon/şəhər bölmələrində Miqrasiya İnformasiya Məntəqələri də fəaliyyətlərini davam etdirmişdir. Məntəqələr əhali arasında insan alveri və zorakılığa qarşı maarifləndirmə aparmaq, həmçinin, əhaliyə yerindəcə miqrasiya üzrə lazımi bilik və məlumatların verilməsi məqsədini daşıyır. Beynəlxalq Miqrasiya Təşkilatı və AzQAC Miqrasiya İnformasiya Məntəqələri vasitəsilə əhali arasında maarifləndirici yayım işlərini təşkil etmək məqsədilə, cari ildə İnsan Alverinə Qarşı mübarizə mövzusunda informasiya xarakterli 28 000 ədəd broşur çap etdirmişdir. Brouşurlar AzQAC-ın bütün rayon/şəhər bölmələrinə təqdim olunmuşdur. Ölkəmizə pənah gətirən miqrantlar il ərzində AzQAC-ın Miqrasiya İnformasiya Məntəqələrinə ümumilikdə, 18 dəfə müxtəlif problemlərin həlli üçün müraciət etmişlər. Müraciətlərə baxılaraq AzQAC tərəfindən dəstəklənmiş və ya aidiyyatı qaydada Azərbaycan Dövlət Miqrasiya Xidmətinə, Beynəlxalq Miqrasiya Təşkilatına və s. Qurumlara əlaqələndirilmişdir.

·**2016-cı ildə** AzQAC və Beynəlxalq Miqrasiya Təşkilatının birgə əməkdaşlığı nəticəsində yanvar-dekabr aylarında AzQAC-nin şəhər və rayon bölmələrinin iştirakı ilə respublika üzrə orta və ali təhsil müəssisələrində, respublika "İnsan Alverinə Qarşı Mübarizə" mövzusunda seminarlar təşkil olunmuşdur. Umumlikdə, 600 seminar keçrilmişdir. Bu seminarlardan təqribən 18 mindən yuxarı şagird və tələbələr bəhrələnmişlər.

**BQXK-AzQAC Silahlara Qarşı Mübarizə proqramı koordinatorları arasında olan ikitərəfli tanışlıq görüşünün mühüm məqamları**
04.10.2016-cı ildə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin(AzQAC)Silahlara Qarşı Mübarizə proqramı koordinatoru, Miqrasiya Şöbəsinin müdiri Məmməd Kətanovun və Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Silahlara Qarşı Mübarizə proqramı üzrə yeni təyin olunmuş regional məsləhətçi Paramdip Mtsaru ilə BQXK-nın Baki ofisində Regional Əlaqələr Koordinatoru Qreqori Le coq və əməkdaşlıq proqramının işçisi Lyudmila Şepelovanın da iştirakı ilə müştərək təqdimat görüşü baş tutmuşdur.
Görüşün məqsədi Silahlara Qarşı Mübarizə proqramı üzrə yeni təyin olunmuş regional məsləhətçi Paramdip Mtsaru ilə Məmməd Kətanovu tanış etmək və onun gələcəkdə Bakı nümayəndəliyi xətti ilə gələcəkdə dəstəyinin artması və (AzQAC) Silahlara Qarşı Mübarizə proqramının strukturunun, fəaliyyətlərinin və BQXK-AzQAC Silahlara Qarşı Mübarizə proqramı çərçivəsində tərəfdaşlığın növbəti addımlarının təqdimatı idi.
Azərbaycan Qızıl Aypara Cəmiyyətini "İcmaya əsaslanan sağlamlıq" proqramı çərçivəsində **"10 Oktyabr Ümumdünya Psixi sağlamlıq Günü"** ilə əlaqədar miqrant Əfqan və Çeçen icmalarının qız və qadınlarına sağlamlıq üzrə növbəti seminar təşkil olunmuşdur. Görüşün məqsədi, qadınlar arasında sağlam həyat tərzi və psixi sağlamlıq barədə, onların həyat tərzində olan davranışların dəyişməsi ilə bağlı məlumatların çatdırılması idi. İştirakçılara sağlam həyat tərzinə aid olan mövzular və xüsusi olaraq psixi sağlamlıqla bağlı bəzi vacib məsələlər qeyd edilmişdir. Məlumatları çatdırandan sonra hər bir iştirakçıya onun həyat tərzinin necə olması barədə məlumatı paylaşmaq imkanı yaradıldı. Məlumatlardan müəyyən oldu ki,iştirakçılar öz həyatlarında bir çox problemlərlə (işsizlik, dil problemi, xroniki xəstəliklər, zərərli vərdişlərə alüdəçilik və s.) üzləşir və daim gərgin vəziyyətdə yaşayır. Buna görə onlar öz narahatlıqlarını bildirmişlərvə bu kimi görüşlərin onlara müsbət təsir etdiyini və müntəzən olaraq keçirilməsi arzusunu xüsusi vurğulamışlar.2016-cı ilin oktyabır ayının 5-də miqrantlar üçün HAYAT Beynəlxalq təşikilatının Qaçqın Qadın və Gənclər Mərkəzində təmənnasız Azərbaycan dili kursunun 4-cü tədris ilinin açılış mərasimi təşkil olundu.



07.10.2016-cı ildə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin (AzQAC) Miqrasiya Şöbəsinin müdiri Məmməd Kətanov, Miqrasiya şöbəsinin təhsil üzrə əməkdaşı, miqrantlara Azərbaycan dili müəllimi Sona Hacıyeva və İcmada Sağlamlıq layihələri üzrə koordinatoru Mətanət Qaraxanova Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının (BMT QAK) Bakı ofisinin Proqram şöbəsinin müdir müavini Nərmin Osmanlının dəvəti ilə BMT QAK-ın Bakı ofisində işgüzar görüşdə olmuşlar.Görüşün məqsədi AzQAC-ın miqrantlarla apardığı işlər, yerinə yetirdiyi fəaliyyətlər, Azərbaycan dili kursları barədə tanışlıq və Bakı nümayəndəliyinin AzQAC-la gələcəkdə müştərək əməkdaşlığının daha da inkişaf etdirilməsi yollarında mütəmadi dəstək imkanlarını müzakirə etmək, işin gedişatı zamanında iradi və qeyri-iradi anlaşılmazlıqların və ya çatışmazlıqların aradan qaldırılması yollarını axtarmaq idi.

**Beynəlxalq Miqrasiya Təşkilatında iki tərəfli görüş**

**19 dekabr-Beynəlxalq Miqrant günü**

Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) Azərbaycandakı Nümayəndəliyi **19 dekabr 2016**-cı il tarixində **Hyatt Konfrans və Görüş Mərkəzinin Quba zalında** keçirilmiş Beynəlxalq Miqrant günü, BMqT-nin 65-ci ildönümü və BMqT-nin Azərbaycandakı fəaliyyətinin 20 illiyinə və Azərbaycan Respublikasının BMqT-yə üzv olmağının 15-ci ildönümünə həsr olunmuş tədbir keçirilmişdir. Tədbirdə Dövlət qurumları qeyri-hökumət təşkilatlarının nümayəndələri və Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Miqrasiya şöbəsinin müdiri Məmməd Kətanov, Bakı Regional Mərkəzinin ilk yardım lahiyəsi üzrə koordinatoru Nurgül Hadıyeva, AzQAC-ın Yasamal rayon bölməsinin sədri Şahin Hüseynov, Kəlbəcər rayon bölməsinin sədri Gəncəli Mehdiyev və Laçın rayon bölməsinin sədri Əli Hüseynov iştirak etmişlər.

**19 Dekabr Ümumdünya Miqrant günü** Globallaşan dünyanın önəmli, aktual məsələlərindən olan miqrasiya həmişə Azərbaycan Qızıl Aypara cəmiyyətin üzvlərinin diqqət mərkəzindədir. Miqrantların böyük problemlərinə azacıq da olsa diqqət göstərmək, onlara yardım əli uzatmaq ayparaçıların təxirəsalınmaz vəzifələrindən biridir. Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Sabunçu rayon bölməsinin sədri Elmira Məlikovanın təşəbbüsü və Miqrasiya şöbəsinin fəal iştirakı ilə Azərbaycan dili kursunun miqrant uşaqları üçün Onurğa Klinikasının Baş həkimi dr.İradə xanım tərəfindən Respublika Qadınlar Cəmiyyətinin məkanında pulsuz yoxlanılması həyata keçirildi. Tədbir onların da iki həkiminin (terapevt, ginekoloq) və digər qonaqların iştirakı ilə gerçəkləşdirilmişdir. Tədbirdə Qadınlar Cəmiyyətinin sədri Bahar xanım və cəmiyyət üzvləri, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Sabunçu rayon bölməsinin sədri Elmira Məlikova və üzvlər, Miqrasiya şöbəsinin Azəri dili müəllimi, Respublikanın Baş Müəllimi Sona Hacıyeva, Qızıl Aypara Cəmiyyətinin İcmada Sağlamlıq layihələrinin koordinatoru Mətanət Qaraxanova söz alaraq bu günün əhəmiyyətindən, dünyada miqrasiya probleminin qloballığından, onların çox ağır problemlərindən danışmışlar.

Miqrant günü münasibətilə Azərbaycan dili kursunun müdavimləri üçün Şirvanşahlar Sarayı və Azərbaycan İncəsənət Muzeyinə də gəzintilər təşkil edilmişdir









# Silahlara Qarşı Mübarizə

## Məqsəd:

AzQAC-ın Strateji Planına uyğun olaraq ölkə ərazisində Mina Risklərinin Azadılması, Mina və Partlamamış Hərbi Sursatların (PHS) partlaması, atəşkəsin pozulması nəticəsində qurbana çevrilən insanlara sosial, humanitar və mənəvi yardımın təmin olunması, mina və PHS hadisələri və qurbanlar haqqında məlumatların toplanılması, mina və digər silahlar üzrə maarifləndirilmə işlərinin həyata keçirilməsi, cəbhə xəttinə yaxın ərazilərdə yaşayan icmaların iqtisadi təhlükəsizliyinin təmin olunması üzrə layihələrin həyata keçirilməsi.

## Fəaliyyətlər

·AzQAC və BQXK arasında 2016-cı ildə əməkdaşlığı nəzərdə tutan müqaviləyə əsasən Silahlara Qarşı Mübarizə Proqramının fəaliyyət planına uyğun olaraq Goranboy rayonunda mina qurbanı ailələriniin sosial durumunun qiymətləndirilməsi prosesi həyata keçirilmişdir. Cari ildə AzQAC-nin Silahlara Qarşı Mübarizə proqramı tərəfindən "Mina Partlayışı Zamanı Əlil Olmuş İnsanların Ailələrinə Sosial Dayaq" layihəsi Goranboy rayonunda həyata keçirilmişdir. Ailələrin yaşayış vəziyyəti və sosial durumu nəzərə alınaraq ən çox ehtiyaclı və dəstəyə ehtiyacı olan 17 ailəyə müəyyən məbləğdə pul yardım edilmişdir. Bu il yardım edilən ailələrlə birlikdə ümumilikdə AzQAC mina qurbanlarına yardım strategiyası çərçivəsində 2009-2016-ci illər ərzində 126 mina qurbanı ailəsinə belə yardım etmişdir.

·AzQAC və ANAMA (Azərbaycan Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik) arasında mövcud olan rəsmi əməkdaşlıq müqaviləsinə əsasən mina hadisələri və qurbanları haqqında məlumatlar aidiyyatı qaydada toplanaraq təqdim edilmişdir.

·2016-cı ilin sentyabr-oktyabr aylarında Beynəlxalq Qızıl Xaç Komitəsinin maliyyə dəstəyi ilə mina təhlükəsi olan ərazilərdə məlumat xarakterli bilbordların bastrılması həyata keçirilmişdir. Ağdam rayonunda 9 ədəd bilbord bastırılmış. Tərtər rayonunda isə 11 bilbord bastrılmışdır və ümumilikdə 2 rayonda 20 bilbord bastırılmışdır.

·2016-cı ildə AzQAC-ın Mina Risklərinin Azaldılması konsepsiyası çərçivəsində ənənəvi layihəsi olan uşaqlar üçün "Təhlükəsiz Oyun Meydançaları" Qazax rayonunun cəbhə xəttinə yaxın ərazidə yerləşən mina riskli Xanlıqlar kəndində, Gədəbəy rayonun KiçiQaramuradlı, Tərtər rayonunun Borsunlu, Ağcabədi rayonun Muğanlı kəndlərində quraşdırılmışdır. Maliyyə dəstəyi Almaniya Qızıl Xaç Cəmiyyəti tərəfindən ianə şəklində təqdim olunmuşdur və Litva Respublikasının Azərbaycandakı Səfirliyi tərəfindən Qazax rayonu Daşsalahlı kəndində uşaqlar üçün "Təhlükəsiz Oyun Meydançası" lalayihəsi həyata keçirmişdir. 2005-2016-cı illər ərzində ümumilikdə Qazax, Ağstafa, Tovuz, Gədəbəy, Göygöl, Goranboy,Tərtər, Ağdam, Ağcabədi və Füzuli rayonlarından 61 kənddə AzQAC tərəfindən "Təhlükəsiz Oyun Meydançası" layihəsi quraşdırılaraq uşaqların istifadəsinə verilmiş və bununla da uşaqların mina və MPQ (müharibənin partlayıcı qalıqları) ilə rastlaşma risklərinin qarşısı qismən də olsa alınmışdır.

·2016-cı ilin dekabr ayında "Ambassador"mehmanxanasında ənənəvi qaydada AzQAC və BQXK birgə olaraq Beynəlxalq Qızıl Xaç/Qızıl Aypara Hərəkatının Azərbaycanda "Silahlara Qarşı Mübarizə"istiqamətində həyata kecirdiyi fəaliyyətlərin yekununa dair görüş keçirmişdir. Görüşdə AzQAC-ın Qazax, Ağstafa, Tovuz, Gədəbəy, Daşkəsən, Göygöl, Goranboy,Tərtər, Bərdə, Samux, Ağdam, Ağcabədi və Füzuli rayon və şəhər bölmələrinin sədrləri, Gəncə və Sabirabad Regional Mərkəzinin koordinatorları, BQXK nümayəndələri, ANAMA-nın Minalar Üzrə Maarifləndirmə şöbəsinin əməkdaşı və AzCBL (Mina Əleyhinə Azərbaycan Kompaniyası İctimai Birlyinin) rəhbəri iştirak etmişlər. Görüşün məqsədi 2016-cı il ərzində AzQAC tərəfindən silahlara qarşı mübarizə proqramı çərçivəsində Respublika ərazisində həyata keçirilən fəaliyyətlərin yekununa dair hesabatın iştirakçılara təqdimatı, onun müzakirəsi və gələcək fəaliyyətlərin və layihələrin planlaşdırılması, ANAMA mütəxəssisi tərəfindən Milli Cəmiyyətin rayon bölmə sədrlərinə İMSMA blanklarının doldurulması üzrə təqdimat xarakterli məşğələnin keçirilməsi olmuşdur.

# Axtarış Xidməti

## Məqsəd:

Bir-birindən ayrı düşmüş ailə üzvlərinin iztirablarını azaltmaq, psixoloji köməklik göstərmək, fövqəladə hallar zamanı və ondan sonra əldə edilən lazımi məlumatları ailə üzvləri arasında mübadilə etmək və həmçinin bir-birinə qovuşdurmaq məqsədi daşıyır.

**Dövlət strukturları ilə əməkdaşlıq həyata keçirilmişdir:**

·AzQAC Axtarış Xidmətinin birgə əməkdaşlıq etdiyi əsas dövlət strukturları:

1) Daxili İşlər Nazirliyi;
2) Dövlət Təhlükəsizlik xidməti;
3) Nazirlər Kabineti nəznində Dövlət Arxiv İdarəsi;
4) Bakı İcra Hakimiyyəti;
5) Respublika Prokurorluğu;
6) Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti;
7) Qaçqınlar üzrə Ali Komissarlıq;
8) Qaçqın və Məcburi köçkünlər üzrə dövlət Komitəsi;
9) Telefon – məlumat xidməti;
və sair dövlət təşkilatları. (təhsil, keçmiş iş yerləri və s.)

## Görüşlər

İl ərzində mütəmadi olaraq BQXK-nin axtarış üzrə nümayəndələri ilə görüşlər keçirilmişdir.
Fövqəladə Hallara hazırlıq, Fövqəladə Hallar zamanı və Fövqəladə Hallardan sonra Axtarış Xidmətnin fəaliyyəti mövzusunda cəbhə xətti və Fövqəladə Halların baş verməsi ilə əlaqədar risk altında olan rayon bölmələrinin sədrləri üçün təlim keçirilmişdir.

## Fəaliyyətlər

İl ərzində Bakı Slavyan və Azərbaycan Turizm Universitetindən AzQAC-ın Baş Qərargahına təcrübə mübadiləsi keçmək üçün gələn 16 nəfər tələbəyə Axtarış Xidməti üzrə seminar keçirilmişdir.

- Mütəmadi olaraq ərizəçilərin qəbulu keçirilmişdir;
- II Dünya müharibəsi zamanı itgin düşənlərin axtarışı;
- Miqrasiya ilə bağlı axtarış;
- Axtarış və sosial problemlərin həlli üçün hüquqi məsləhətlərin verilməsi;
- Sosial problemlərin həlli üçün sənədlərin axtarışı;
- AX-nin fəaliyyəti barədə RM və RB vasitəsilə yayımı;
- FHN-in işçiləri üçün AX-in faəliyyəti barədə təlim – Oktyabr ayında 15 nəfər




**Regional Mərkəzlər / yerli bölmələrlə iş davam etdirilmişdir:**

İl ərzində Lənkəran, Mingəçevir, Sabirabad, Gəncə Regional Mərkəzlərinin koordinatorları ilə dəfələrlə görüşlər keçirilmiş, sorğu blankları mütəmadi olaraq paylanılmışdır. Həmçinin, bir çox rayon bölmələrinin sədrləri ilə axtarış işləri ilə bağlı telefon əlaqəsi yaradılmış, məsləhətlər verilmişdir.

**Statistik hesabat:**
**2016-cı il ərzində daxil olmuş sorğular:**
**Açılmış işlər: 50**
**Azərbaycan daxili - 21**

| | |
|---|---|
| Miqrasiyaya dair axtarış | 20 |
| Repressiya münaqişəsi nəticəsində itirilmiş sənədlərin axtarışı | 5 |
| II Dünya müharibəsi zamanı itkin düşənlərin axtarışı | 4 |

| | |
|---|---|
| Dağlıq Qarabağ münaqişəsi | 2 |
| BQXK göndərlməsi üçün sorğular | 2 |
| **Cəmi:** | **33** |

**Ölkə hüdudlarından kənarda - 17**

| | |
|---|---|
| Miqrasiyaya dair axtarış | 12 |
| Münaqişə nəticəsində itirilmiş sənədlərin axtarışı | 1 |
| II Dünya müharibəsi zamanı itgin düşənlərin axtarışı | 3 |
| Dağlıq Qarabağ münaqişəsi | 1 |
| **Cəmi:** | **17** |

Ailə məktubu - 1

**2016-cı il ərzində bağlanmış işlər - 16**

| | | |
|---|---|---|
| Miqrasiya nəticəsində itgin düşənlərin axtarışı | 2 müsbət | 2 mənfi |
| Miqrasiyaya dair sənədlərin axtarışı | - | 1 mənfi |
| II Dünya müharibəsi zamanı itgin düşənlərin axtarışı | 1 müsbət | 2 mənfi |
| II Dünya müharibəsinə dair sənədlərin axtarışı | - | 1 mənfi |
| BQXK üçün göndərilməli olan sorğular | - | 2 mənfi (Yönəldildi) |
| Repressiya zamanı itgin düşənlərin axtarışı | - | 5 mənfi |
| **Cəmi:** | **3** | **13** |

# Maliyyə

Gəlirlərin təhlili göstərir ki, AzQAC üzrə ümumi gəlirlər 2016-cı il üçün 1815295.46 manat təşkil edir. Dövlət büdcəsindən AzQAC-a ayrılan 804978 AzN ümumi gəlirin 44.3% təşkil edir. 2016-cı ildə həyata keçirilmiş "Təhlükəsiz və Möhkəm İcmaların Qurulması" (Avstriya QXC, Avstriya İnkişaf Agentliyi, Avropa Birliyinin maliyyə dəstəyi) layihəsi davam etdirilmişdir. Bu proqram 41000 AURO (73070.20 manat) təşkil edərək ümumi gəlirlərin 4 %-dir. Hesabat ilində Almaniya Federativ Respublikasının səfirliyi tərəfindən 55408.60 manat daxil olaraq təyinat üzrə xərclənmişdir. Hesabat dövründə RM və RB üzrə 850000 manat üzvülük haqqı hesablanmış və 832744 manat üzvülük haqqı yığılmış yəni 45.9% icra olunmuşdur. Cari ildə ilk yardım kurslarından 2410 manat daxil olmuşdur.
2016-cı ildə AzQAC-ın xərclərinin 612724 AzN əmək haqqı o cümlədən, 143287 AzN DSMF, 48967 AzN isə gəlir vergisi təşkil etmişdir. Hesabat dövründə yerli bölmələrin büdcə ilə hesablaşmalarına nəzarət olunmuş, bölmələrin DSMF və yerli vergi orqanları ilə hesablaşmalarının qanunvericiliyə uyğun qaydada aparılması işi müşahidə olunmuşdur.

| | | 2016 YANVAR-DEKABR | |
|---|---|---|---|
| | Gəlirlər bölməsi | manatla | faiz |
| | o cümlədən (cəmi) | **1 815 295,46** | 100% |
| | Beynəlxalq QXQAC Federasiyası (vərəm və qan donorluğunun inkişafı proqramları) | | |
| | BQXK (BQX/QAH-ın yayımı, ailə əlaqələrinin bərpası, ilk yardıma dəstək, fövqəladə hallara hazırlıq və cavabverməyə dəstək, silahlara qarşı mübarizə proqramına dəstək, iqdisadi təhlükəsizlik layihəsi) | | |
| | AR Büdcə vəsaiti | | |
| | Üzvlük haqlarından (respublika üzrə) | | |
| | TOM | | |
| | Təhlükəsiz və Möhkəm İcmaların Qurulması layihəsi (Avstriya QXC-ADA) | | |
| | İlk yardım təlimlərindən gəlirlər | | |
| | Fundraising və gəlirgətirmə (ianə qutularından daxilolmalar), müəssisə və təşkilatlardan, ayrı-ayrı şəxslərdən, şəxsi ianələrdən olan daxilolmalar | | |
| | Sair gəlirlər | | |



| Xərclər bölməsi | 2016 manatla | 2016 faiz |
|---|---|---|
| o cümlədən (cəmi) | 1 813 149,04 | 100% |
| Beynəlxalq QXQAC Federasiyası (vərəm və qan donorluğunun inkişafı proqramları) | 0,00 | 0,0% |
| BQXK (BQX/QAH-ın yayımı, ailə əlaqələrinin bərpası, ilk yardıma dəstək, fövqəladə hallara hazırlıq və cavabverməyə dəstək, silahlara qarşı mübarizə proqramına dəstək, iqdisadi təhlükəsizlik layihəsi) | 0,00 | 0,0% |
| Əmək haqqı | 612 724,00 | 33,8% |
| DSMF,Gəlir vergisi və həmkarlar | 192 254,00 | 10,6% |
| İşçilərin icbari sığortası | 1 700,00 | 0,1% |
| TOM | 55 408,60 | 3,1% |
| Təhlükəsiz və Möhkəm İcmaların Qurulması layihəsi (Avstriya QXC-ADA) | 73 070,20 | 4,0% |
| Təsərrüfat xərcləri, büdcə ilə hesablaşmalar, əmək haqqı xərcləri (respublika üzrə) | 431 917,68 | 23,8% |
| Sair (bank xidmətləri, təsərrüfat xərcləri, müavinətlər, ezamiyyə xərcləri və inzibati xərclər) | 97 016,21 | 5,4% |
| AzQAC könüllülərinin il ərzində göstərdikləri xidmətin təqribi dəyəri (respublika üzrə) | 349 058,35 | 19,3% |



# İLLİK HESABAT 2016

**az.redcrescent.az**









